# ELMİ TƏDQİQAT

Beynəlxalq Onlayn Elmi Jurnal

# SCIENTIFIC RESEARCH

International Online Scientific Journal

aem.az

AEM

e-ISSN: 2789-6919

## ELM VƏ TƏHSİLİN ƏSASLARI
## VIII BEYNƏLXALQ ELMİ KONFRANS

## FUNDAMENTALS OF SCIENCE AND EDUCATION
## VIII INTERNATIONAL SCIENTIFIC CONFERENCE

09.06.2024

# ELMİ TƏDQİQAT

**Beynəlxalq Onlayn Elmi Jurnal**
**İmpakt Faktor: 1.172**

---

**ELM VƏ TƏHSİLİN ƏSASLARI**

**VIII BEYNƏLXALQ ELMİ KONFRANS**

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

# SCIENTIFIC RESEARCH

**International Online Scientific Journal**
**Impact Factor: 1.172**

---

**FUNDAMENTALS OF SCIENCE AND EDUCATION**

**VIII INTERNATIONAL SCIENTIFIC CONFERENCE**

**(09.06.2024)**

**Bakı – Baku**
**2024**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

The journal is included
in the register of Press
editions of the Ministry of
Justice of the Republic of
Azerbaijan on
01.03.2021.
Registration № 4336

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Mətbuat Avenue, 529,
"Azerbaijan" Publish
House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**e-mail:**
bek.tedqiqat@aem.az

## Beynəlxalq indekslər / International Indices

**e-ISSN: 2789-6919**
**DOI: 10. 36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

# TƏŞKİLAT KOMİTƏSİ


## Sədr

**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA, A.A.Bakıxanov adına Tarix İnstitutu / Azərbaycan

## Sədr müavinləri

**Mübariz HÜSEYİNOV**, “Elmi Tədqiqat” beynəlxalq onlayn elmi jurnalın baş redaktoru / Azərbaycan

**Prof.Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti, Polşa

## Məsul katib

**Assos.Prof.Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

## ÜZVLƏR

**Prof. Dr. Şəhla SƏMƏDOVA,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Cavid QASIMOV,** Van Yüzüncü Yıl Üniversitesi / Türkiyə
**Prof. Dr. Yerden KAJIBEK**, Qazax dili Akademiyası / Qazaxıstan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin İqor Sikorski adına Kiyev Politexnik İnstitutu / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA, Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Nataly MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Yelena ŞİŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Təranə HACIYEVA,** Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. Elçin İBRAHİMOV,** Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Rafiq ÇOBANOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof.Dr. Əkbər AĞAYEV,** Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ
**Dr. Asif MANAFOV**, AMEA, Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnkişafı Mərkəzi / Özbəkistan

**Assoc. Prof. Dr. İlkin ƏLİMURADOV**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Könül HƏSƏNOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Cavadxan QASIMOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Xalidə HƏSƏNOVA**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gulsanam NOROVA,** Navoiy Dövlət Pedaqogika İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Faiq ŞAHBAZLI,** ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci / Azərbaycan
**Assoc. Prof. Dr. Elnurə ƏZİZOVA,** Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan
**Assoc. Prof. Dr. Həbib MİRZƏYEV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc HƏMZƏYEVA,** Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA,** Xəzər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əlöysəd ƏSGƏROV,** Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əsəd QURBANLI,** AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Amil ƏSGƏROV,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Qəzənfər CƏFƏROV,** AR ETN, Kataliz və Qeyri-üzvi kimya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Allahverdi CƏFƏROV,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramazan EYYUBOV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Lalə QOCAYEVA,** Gəncə Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**PhD İvan Pavlii,** Dallas Beynəlxalq Universiteti / ABŞ
**PhD Tomas SMEDLEY,** Cenevrə Kolleci, Pensilvaniya / ABŞ
**PhD Qəmər İSAYEVA,** Azərbaycan Texniki Universiteti/ Azərbaycan
**PhD Afaq RZAYEVA,** Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**PhD Seymur MEŞAİK**, Gəncə Dövlət Universiteti / Azərbaycan
**PhD Rafiq AĞAMALIYEV,** Milli Aerokosmik Agentliyi, Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu / Azərbaycan
**PhD Aygün BAYRAMOVA,** Milli Aerokosmik Agentliyi, Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu / Azərbaycan

# THE ORGANIZING COMMITTEE

## Chairman

**Prof. Dr. Haji HASANOV**, ANAS, Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan

## Deputy chairman

**Mubariz HUSEYINOV**, Editor-in-chief of international online journal "Scientific Research" / Azerbaijan

**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland

## Executive secretary

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan

## MEMBERS

**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Javid GASIMOV,** Van Yuzuncu Yil University / Turkey
**Prof. Dr. Erden KAJIBEK**, Kazakh Language Academy / Kazakhstan
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, ANAS, Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Mongolian State University / Mongolia
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Cihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Tarana HAJIYEVA,** Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Elchin IBRAHIMOV,** Azerbaijan University of Languages / Azerbaijan
**Prof. Dr. Yaqut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Rafiq CHOBANOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Akbar AGAYEV,** Sumgait State University / Azerbaijan
**Prof. Dr. Nikolay BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Faxraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia

**Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Assoc. Prof. Dr. Ilkin ALIMURADOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Konul HASANOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Javadkhan GASIMOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Khalida HASANOVA**, Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulsanam NOROVA,** Navoi State Pedagogical İnstitute / Uzbekistan
**Assoc. Prof.Dr. Urfan HASANOV,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Faig SHAHBAZLI,** Industrial and Technological college under ASOIU / Azerbaijan
**Assoc. Prof. Dr. Elnura AZIZOVA,** Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Irada KARIMOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Habib MIRZAYEV,** Azerbaijan Technical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj HAMZAYEVA,** Sumgait State University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Leyla ALIYEVA,** Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Aloysad ASGAROV,** Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Asad GURBANLI,** ANAS, Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Amil ASKEROV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU,** Baku Engineering University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Gazanfar JAFAROV,** Azerbaijan National Academy of Sciences / Azerbaijan
**Assoc. Prof. Dr. Allahverdi JAFAROV,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramazan EYYUBOV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Lala GOJAYEVA,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**PhD Ivan Pavlii,** Dallas International University / USA
**PhD Thomas SMEDLEY,** Geneva College in Beaver Falls, Pennsylvania / USA
**PhD Gamar ISAYEVA,** Azerbaijan Technical University/ Azerbaijan
**PhD Afag RZAYEVA,** Baku Engineering University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine
**PhD Seymur MESHAIK**, Ganja State University / Azerbaijan

**PhD Rafig AGHAMALIYEV,** National Aerospace Agency, Natural Resources Space Research Institute / Azerbaijan
**PhD Aygun BAYRAMOVA,** National Aerospace Agency, Natural Resources Space Research Institute / Azerbaijan

Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans
9 iyun 2024 / 8-12
Fundamentals of Science and Education VIII International Scientific Conference
9 june 2024 / 8-12
DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Pəri Paşayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
p.semsizade@mail.ru

## AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ ÜMUMİLƏŞDİRİCİ DƏRSLƏR HAQQINDA

***Açar sözlər:*** *müasir təlim prosesi, ümumiləşdirici dərslər, biliyin möhkəmləndirilməsi, bacarıq və vərdişlər*
***Keywords:*** *modern training process, summative lessons, knowledge consolidation, skills and habits*

Ölkəmizdə kurikulum islahatının aparılması ilə təhsil sisteminə yeni anlayışlar, yeni terminlər daxil oldu. Bunlardan biri də ümumiləşdirici dərslər anlayışıdır. Qeyd etməliyik ki, ümumiləşdirici məzmunlu tapşırıqlar bu günümüzə qədər istifadə olunan tapşırıqlardandır. Şübhəsiz ki, təhsilin məzmunu yenilənərkən istifadə olunan metod və vasitələr də yeniləndi. O cümlədən ümumiləşdirici tapşırıqlar haqqında yeni ideyalar irəli sürüldü. Ümumiləşdirici dərs müasir təhsilin ən mühüm tərkib hissələrindən biridir və zamanın tələblərinə uyğun dərs prosesinin təşkili üçün vacib məsələlərdəndir. Ümumiləşdirici dərslər və onun təşkilinə verilən tələbləri mövzu kimi seçməyimizin də səbəbi məhz budur.

Bildiyimiz kimi, XXI əsr təhsil əsridir. Müasir təlim tələb-yönümlüdür, şəxsiyyətyönümlüdür, şagirdyönümlüdür, əsas

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

prinsip kimi inteqrasiya qəbul olunub, dialoji təlim əsasdır, müəllim və şagirdlər arasında əks-əlaqə mövcuddur, demokratik üsluba, şagirdin tələblərinə və təlim nəticələrinə yönəlib, tədqiqat zamanı müstəqil şəkildə yeni məlumatlar əldə edilir, müxtəlif yeni təlim texnologiyalarından istifadə olunur. Təhsilin modernləşdirilməsinin məqsədi təhsil sisteminin davamlı inkişaf mexanizminin yaradılmasından ibarətdir. Bu mexanizmin əsas məqsədi şagirdlərin təbii imkanlarını reallaşdırmaqla onların idrak fəallığına nail olmaq və təhsilin fundamentallığını saxlamaq, yetişməkdə olan gənc nəslin hərtərəfli formalaşdırılmasını təmin etməkdir.

Müasir təhsil bir sıra xüsusiyyətlərinə görə ənənəvi təhsildən fərqlənir. Ənənəvi təhsildə nəzəri qaydalar öyrədilir, daha sonra bu qaydalara uyğun tapşırıqlar, çalışmalar verilirdi. Yeni təhsil sistemində isə əvvəlcə mətn verilir, sonra isə həmin mətnin əsasında duran dil qaydaları izah edilir. Ümumiyyətlə, müasir təhsildə ümumiləşdirici dərslər daha çox mətn tapşırıqları üzərində aparılır. Bəs ümumiləşdirici dərs nədir? Ümumiləşdirici dərslər dedikdə, öyrənilən mövzuların möhkəmləndirilməsi üçün seçilən tapşırıqlar, yoxlama məqsədi ilə hazırlanan sınaq sualları, testlər nəzərdə tutulur. Deməli, ümumiləşdirici tapşırıqlar həm də təkrar dərslərdir. Yəni, öyrənilmiş bütün bilik və bacarıqların şagirdlərin yaddaşında necə qaldığını, hansı qaydaların mənimsənilib, hansı qaydaların unudulduğunu öyrənmək baxımından ümumiləşdirici dərslər böyük əhəmiyyət kəsb edir.

Ümumiləşdirici dərslərin təşkilində əhəmiyyət daşıyan mətn tapşırıqlarının nə olduğuna diqqət yönəldək: “Mətn eyni fikir və mövzu ətrafında birləşmiş cümlələr toplusudur. O, ən böyük nitq vahididir. Mətn yalnız ünsiyyət prosesində yaranan

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

və mövcud olan nitq vahididir. Şagirdin oxu və yazı vərdişləri mətn vasitəsilə formalaşır."

Bəs ümumiləşdirici dərslərin təşkilində mətnlərin rolu nədir? Müasir təhsil şagirdlərin yaradıcı və məntiqi təfəkkürlərinin inkişafına yönəlib, bilikləri hazır şəkildə öyrənmək deyil, əksinə, tədqiqatçılığa sövq edilərək informasiyaları yaradıcı şəkildə əldə etmək tələb olunur. Həmçinin, verilmiş mətnlər şagirdlərə təkcə nəzəri qaydaları öyrətmir, həm də onlara yüksək keyfiyyətlər aşılanmasına xidmət göstərir.

Qeyd edək ki, ümumiləşdirici dərslərin uğurlu təşkilinə verilən tələblərdən biri də inteqrasiyanın gözlənilməsi və bu şəraitdə dərsin qurulmasıdır. İnteraktiv təlim zamanı həm tədris olunan bölmələrin möhkəmləndirilməsi, həm də şagird nailiyyətlərinin qiymətləndirilməsi baxımından ümumiləşdirici dərslərin təşkili yüksək səmərə verir. Belə ki, müvafiq bölmənin möhkəmləndirilməsinə yönələn ümumiləşdirici tapşırıqlarda təkcə bir bölmənin, fəslin, yaxud təkcə bir fənnin deyil, mövzu ilə əlaqəli digər fənlərin də qarşılıqlı əlaqəsi gözlənilməlidir. Ümumiləşdirici dərslərdə inteqrasiyanın gözlənilməsi biliklərin hafizədə möhkəmləndirilməsinin ən optimal üsuludur. Mətnlər üzərində ümumiləşdirici dərslərin uğurlu təşkilində vacib rolu olan digər cəhət mətnlərin seçilməsindən asılıdır. Əlbəttə, mətnin seçilməsi pedaqoji təcrübə və bacarıq tələb edir.

Şagird mətnin məzmununa uyğun ümumiləşdirmə apararaq ona aid atalar sözü, yaxud hikmətli ifadəni seçir. Bu üsulla həm dərs prosesinin daha uğurlu təşkilinə, həm də dərsin daha maraqlı aparılmasına nail ola bilərik. Biliklərin təkrarlanması və ümumi nəticəyə gəlmək üçün mühüm yer tutan üsullardan biri də Venn diaqramıdır. Bu üsulun tətbiqində əsas məqsəd anlayışları müqayisə etmək, onların fərqli və oxşar cəhətlərinin

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

seçilməsi, şagirdlərdə təhlil bacarığının inkişafı, qiymətləndirmə prosesini daha obyektiv aparmaqdır. Ümumiləşdirici dərslər hazırlanarkən hansı metodlardan istifadənin daha səmərəli olduğunu araşdıraq. Bunun üçün fərqli üsullardan, metodlardan istifadə olunur. Həmin metodlar arasında Beyin həmləsi, BİBÖ, Klaster, Müzakirə xəritəsi, Debat, Simulyasiya və rollu oyunlar, Blum kubu, Karusel, Auksion, Proqnozlaşdırma, Binqo, Ziqzaq, Mozaika, Poetik cığır, Venn diaqramı və s. kimi iş üsullarının adlarını çəkmək olar.

Metodist alim Həsən Balıyev ümumiləşdirici dərslərdə müqayisə metodunun istifadəsinə xüsusi əhəmiyyət verirdi. O, Azərbaycan dili dərslərini müqayisəsiz təsvir etməyin mümkünsüzlüyünü ifadə edir və müqayisəni dil dərslərinin canı hesab edirdi.

Beləliklə, müəllim ümumiləşdirici dərsləri ardıcıllıqla təşkil edərək, daha əvvəl qazanılan biliklərlə yeni əldə olunan biliklər arasında müqayisə və ümumiləşdirmələr apararaq şagirdlərdə öyrənilən biliklərin möhkəm mənimsənilməsinə səbəb olur. Öyrənilən mövzuların bir sistem halına salınması və nəticə çıxarılmasında ümumiləşdirici dərslər böyük əhəmiyyət daşıyır. Ümumiləşdirici dərslərdə şagirdlər keçilən mövzuları təkrar edir, bununla qazandıqları bilikləri yaddaşlarında daha yaxşı saxlamağa nail olurlar. Bu zaman informasiyalar ümumiləşdirilir, sistemləşdirilir, yekunlaşdırılır və sonda nəticələr çıxarılır. Əvvəlcədən əldə edilmiş biliklərin yeni öyrədilmiş məfhumlar üzərində işləyərək ümumiləşdirici dərslərdə sxemlər, qrafiklər, cədvəllər tərtib olunur. Daha sonra hadisə və obyektlər arasındakı bağlılıqlar aşkara çıxarılır, faktlar müqayisə olunur, nəticə çıxarılır. Bütün bunlarla da şagirdlərə mövzulararası və fənlərarası inteqrasiyanın yaradılması öyrədilir.

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

Ümumiləşdirici dərslərin faydalı olduğu digər müasir təlim modeli isə qiymətləndirmədə müşahidə olunur. Bildiyimiz kimi, şagirdlərin qazandığı biliklərin yoxlanılması istər ənənəvi təlimin, istərsə də müasir təlimin vacib şərtlərindəndir. Ümumiləşdirici tapşırıqların yerinə yetirilməsi şagirdlərin əldə etdiyi bilikləri hansı səviyyədə mənimsədiklərini yoxlamaq üçün olduqca faydalıdır. Qazanılmış informasiyaların şüurlu şəkildə mənimsənilməsi onların uzun müddət hafizədə qalmasına şərait yaradır. Öyrənilmiş biliklərin tətbiqi isə biliklərin möhkəmləndirilməsinin əsas şərtlərindəndir. Hər bir müəllim öyrənilən mövzuların daha uzun müddət hafizədə qalması üçün bütün vasitələrdən istifadə etməyi bacarmalıdır. Qazanılan biliklər, informasiyalar dəfələrlə təkrar edildikcə şagirdlərin yaddaşında daha möhkəm yer tutur.

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 13-16**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 13-16**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

**Amil Əsgərov**
Naxçıvan Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
Amilesgerov075@gmail.com

# NAXÇIVANDA MUĞAM SƏNƏTİNİN TƏKAMÜL YOLU

***Açar sözlər:*** *Naxçıvan, musiqi, muğam, musiqi janrı, ənənəvi musiqi*
***Keywords****: Nakhchivan, music, mugham, music genre, traditional music*

Müasir dövrdə Naxçıvan Muxtar Respublikasında yaşayan zəngin xalq musiqisi irsi çoxəsrlik təşəkkül və təkamül yolu keçmişdir. O cümlədən Naxçıvanda qədim dövr mədəniyyətinə aid olan muğam sənəti uzun təkamül yolu keçərək, Orta əsrlərdə özünün yüksək inkişaf səviyyəsinə çatmış, bir peşəkar musiqi janrı kimi zəngin ifaçılıq ənənələri əldə etmişdir. Muğam sənətinin və muğam ifaçılığının inkişaf etməsində bəzi amillər mühüm rol oynamışdır. Bu amillərə nəzər salaq.

Naxçıvan Muxtar Respublikasında çoxəsrlik və inkişaf etmiş müasir muğam ifaçılığı öz tarixi başlanğıcını orta əsrlərdən alır. Naxçıvan ərazisində erkən orta əsrlərdən başlayaraq, iqtisadiyyatın, ticarətin inkşafı nəticəsində şəhərlər meydana gəlmişdir. Qədim və orta əsrlərdə Naxçıvan diyarında yaranan şəhərlərdə sənətkarlıq və bədii incəsənət növləri yaranmış və inkişaf etmişdir. Naxçıvan, Ordubad və b. şəhərlərdə yaradıcılıq və sənətkarlıq sahələri, onlarla birlikdə sənət məktəbləri və məclisləri intişar tapmışdır.

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

Naxçıvan ərazisində şifahi ənənəli musiqi sənəti müxtəlif səviyyədə yayılmışdır. Məsələn, əgər aşıq sənəti daha çox Şərur, Şahbuz, Culfa kimi bölgələrdə geniş intişar tapmışdırsa, Naxçıvan və Ordubad şəhərlərində muğam üçlüklərinə, mahnı ifaçılığına böyük maraq olub. Bu diyarda yaradılmış və Naxçıvanı tərənnüm edən onlarca musiqi əsərləri zamanın süzgəcindən keçərək bu gün də öz təravətini itirməyib.

Azərbaycan musiqi mədəniyyətində muğam sənətinin inkişafı, bu sahədə görkəmli ustadların yetişməsi yeni bir mərhələ olmuşdur. Naxçıvanda muğam ifaçılarının və digər peşəkar musiqiçilərin fəaliyyəti musiqi mədəniyyətinin inkişafında mühüm əhəmiyyətə malikdir.

Naxçıvanın orta əsrlərə aid memarlıq və arxeologiya abidələri, bu ərazidə bədii mədəniyyətin, bədii sənətkarlığın, o cümlədən memarlığın, rəssamlığın, muğamın inkişaf etməsindən xəbər verir. Naxçıvan memarlıq abidələri incəsənətin qədim növü kimi burada orta əsrlərdə yüksək bədii sənətkarlığın, məktəbin və üslubun olduğunu təsdiq edir. Başlıcası, bu sənət növləri və sənətkarlıq ənənələri ilə yanaşı, qeyri-maddi mədəniyyət – poeziya və muğam sənəti də orta əsrlərdə Naxçıvan bədii mədəniyyət və incəsənətinin ayrılmaz tərkib hissəsi kimi yaşamışdır.

Məlum olduğu kimi, XII-XVI əsrlər ərzində Şərq mədəniyyətində böyük bir yüksəliş dövrü olmuşdur ki, bunu elmi ədəbiyyatda "Şərq intibahı" və ya "Müsəlman renessansı" dövrü adlandırırlar.

XII və XIII əsrin əvvəlinə Yaxın Şərq ölkələrində "Müsəlman intibahının" yüksək nöqtəsi kimi baxılır. A.Hacıyevin fikrincə, Azərbaycan intibahı Atabəylər (1134-1225) və Sasanilər (1501-1590) dövlətlərinin dövrü arasındakı üç

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

mərhələni – XII-XIII əsrlərin əvvəli, XIII-XIV və XV-XVI əsrləri əhatə edir.

Azərbaycanda və onun bölgələrində, o cümlədən Naxçıvanda muğam sənəti böyük inkişaf yolu keçmiş və xalq tərəfindən çox sevilmişdir. XII əsrdə əmir Şəmsəddin Eldəniz tərəfindən Atabəylər dövlətinin paytaxtının Naxçıvana köçürülməsi mühüm tarixi əhəmiyyətli bir hadisə olmuşdur. Bu, siyasi-iqtisadi yüksəlişlə yanaşı, mədəniyyət və incəsənətin də inkişafına təkan vermişdir. Görkəmli alimlər, rəssamlar, memarlar, xanəndələr, çalğıçılar, aşıqlar Əmirin sarayına dəvət olunaraq, Naxçıvanda mədəni irsin inkişafı və nəsildən-nəslə ötürülməsi üçün mühüm işlər görmüşlər.

Ədəbiyyat tarixindən məlumdur ki, orta əsrlər dövründə bir çox görkəmli şairlər bir müddət Naxçıvanda yaşayıb-yaratmışdır. Onlardan Azərbaycanın klassik şairləri Qətran Təbrizinin, Kəmaləddin Naxçıvaninin, Əbubəkr ibn Xosrovun yaradıcılıq fəaliyyəti Atabəy Məhəmməd Cahan Pəhləvanın sarayı ilə bağlı olmuşdur. Eyni zamanda, tarixi mənbələrdə Naxçıvanda yaşayıb-yaratmış mütəfəkkir alimlərdən Nəcməddin Naxçıvani, Hinduşah Naxçıvani, Sadiq bəy Ordubadi, Baba Nemətulla Naxçıvani və başqalarının adları qeyd olunmuşdur.

Məlumdur ki, Azərbaycanda muğam sənətinin inkişafında xanəndələrlə yanaşı, şairlərin böyük rolu olmuşdur. Muğam janrı məhz orta əsrlərdə klassik poeziyanın inkişafı sayəsində intişar tapmış və yüksək təkamül yolunu keçmişdir. Muğam ifaçılığında Nizaminin, Füzulinin, Vaqifin, Seyid Əzimin, Zakirin, Natəvanın qəzəllərindən istifadə edilir.

Muğam ifaçılığında naxçıvanlı şairə, klassik Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən biri olan Heyran xanımın (1790-1848) şeirləri geniş yayılmışdır. Heyran xanım Naxçıvanda Kəngərli xanları ailəsində anadan olmuş, ərəb-fars

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

dillərini, klassik ədəbiyyatı mükəmməl surətdə öyrənmişdir. XIX əsrin əvvəllərində Rusiya-İran müharibəsində naxçıvanlıların köçürülməsi zamanı, Heyran xanım da ailəsi ilə birlikdə Naxçıvandan İrana köçürülmüşdür. O, ömrünün sonuna kimi Təbrizdə yaşamışdır.

Naxçıvan mədəniyyətində iz salmış görkəmli şəxsiyyətlərdən biri də şairə Qönçəbəyim olmuşdur. Naxçıvanda fəaliyyət göstərən "Qönçeyi-ülfət" ədəbi-musiqili məclis onun adı ilə bağlı olmuşdur.

Naxçıvanda muğamların ifasında, təbliğində və öyrədilməsində, muğam ifaçılığının və tədrisinin inkişafında görkəmli peşəkar musiqiçilərdən və musiqi xadimlərindən – Məmməd Məmmədovun, Səfər Rəcəblinin, Məmməd Ələkbərovun, Tapdıq Hüseynovun, Hacı Məmmədovun, Vahid Axundovun, Səlim İxizgilovun, Kamil Allahverdiyevin, Nəriman Məmmədovun, Əsgər Əsgərovun, Ələkbər Rəhimovun, Aydın Camalbəyovun, Arif Əmirovun, Əkrəm Məmmədlinin, Hüsnü Qubadovun, Abdulla Babayevin və bir çox başqalarının böyük xidmətləri vardır.

Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans
9 iyun 2024 / 17-20
Fundamentals of Science and Education VIII International Scientific Conference
9 june 2024 / 17-20
DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

**Cavid İsmayılov**
Naxçıvan Dövlət Universiteti
Cavidismayilov@gmail.com

# TƏSVİRİ SƏNƏTDƏ MOLLA NƏSRƏDDİN SATİRASI

***Açar sözlər:*** *Azərbaycan rəssamlığı, karikatura, satira, təsvir, idea, tənqid, məişət*

***Keywords:*** *Azerbaijani painting, caricature, satire, description, idea, criticism, household*

Qabaqcıl ideyaları yaymaqla türk dünyası və islam Şərqində geniş şöhrət qazanmış "Molla Nəsrəddin" jurnalı təkcə fəal oxucuları və könüllü müxbir-əməkdaşları ilə deyil, böyük bir rəssamlıq məktəbinin - karikatura rəssamlığımızın əsasını qoymuşdur. Azərbaycan karikatura sənəti özünün kamilliyi, aktual həyat hadisələrinə, ictimai və mənəviyyat faktlarına çevik, kəskin və operativ müdaxiləsi ilə həmişə diqqəti cəlb etmiş, yüksək ictimai rəy yaratmış, heyrət hissi doğurmuşdur.

Bir qayda olaraq, karikatura sənətinin çiçəklənməsi, adətən, çox ciddi və mühüm ictimai-siyasi konfliktlərin meydana gəlməsi mərhələsinə təsadüf edir. Xalq kütlələrinin böyük və güclü fəallığının əmələ gəlməsi, bu ictimai qüvvədə canlanmanın yaranması, demokratiyanın və demokratik qüvvələrin mübarizə əzminin yüksəlməsi karikatura janrının çiçəklənməsi üçün münbit zəmindir. Hələ böyük Mirzə Cəlil "Molla Nəsrəddin"i təbiət özü yaratdı, zəmanə özü yaratdı" - deyərkən məhz 1905-1907-ci illər Rusiya İmperiyasında baş verən siyasi təbəddülatlar, cəmiyyətin demokratikləşməsi, fikir azadlığı uğrunda mübarizələri nəzərdə tuturdu. Zəmanənin dəyişdiyi,

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

tərəqqi və inkişaf meyillərinin gücləndiyi bir dövrdə Azərbaycan karikatura sənətinin meydana gəlməsi və inkişafı təbii və qanunauyğun hal idi.

Cəlil Məmmədquluzadənin nəşr etdiyi "Molla Nəsrəddin" jurnalının araya- ərsəyə çatmasında iki mühüm cəhəti göstərmək olar: xalq müdrikliyi və hazırcavablığının ifadəsi olan tarixi və folklor, Nəsrəddinin gülüş yaratmaq bacarığı ilə yazıçının satirik publisistika üzrə yaradıcılıq qabiliyyətlərinin birliyi; dövrünün satirik mətbuatının cəmiyyət həyatının siması, mənəvi-əxlaqi, psixoloji xüsusiyyətlərinə aid məsələlərə yanaşma tərzləri ilə tanışlığı və s.

Geniş mənada karikatura anlayışı altında məqsədli şəkildə komik effektin yaradılması durur. Bu zaman rəssam reallıqla fantastikanın birliyini, üzvi əlaqəsini yaratmaqla insanın spesifik əlamət və keyfiyyətlərini şişirtmək, daha da artırıb qüvvətləndirməklə ifadə etməyə çalışır. Bu prosesdə gözlənilməz müqayisələrdən istifadə etmək, insanı ətraf gerçəkliklə qarşılıqlı münasibət və əlaqələrdən təcrid edib onu dəyişmiş şəraitdə göstərmək də zəruri yaradıcılıq priyomlarından hesab olunur.

Təsviri sənətin məxsusi janrı kimi karikaturanın özünəməxsus keyfiyyətlərindən biri də satirik təsviri formaya malik olmasıdır. Belə bir satirik forma izlənilən ideyanin sosial-tənqidi istiqamətini şərtləndirir. Buna uyğun olaraq, siyasi karikaturalar müəyyən konkret məzmuna malik mətnlərlə ifadə olunur. Bu mətnlər karikaturanın məzmununun, burada əks olunan hadisənin açılmasına xidmət edir, məqsəddən asılı olaraq rəsmdə şişirdilmiş, mürəkkəbləşdirilmiş, təhrif olunmuş hadisə -"lövhə"nin daha aydın, konkret, dəqiq şəkildə təsəvvür edilməsinə, mənimsənilməsinə köməklik göstərir.

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

Karikatura ədəbi yaradıcılıq və təsviri incəsənətin unikal sintezidir. Karikaturada bədii, kütləvi mətbu vasitələrlə qrafika sənəti uzlaşaraq siyasi, ictimai, mənəvi problemlərin acı gülüş, iztehza, kinayə yolu ilə islahı əsas yer tutur. Burada müəllif ssenarist, rejissor, qurluşçu-tərtibatçı, aktyor, rəssam, həm-çinin, öz fikirlərini müxtəlif texniki təsvirlərlə ifadə edə bilən yaradıcı nümayiş etdirir. Yeni ideyaların ictimai şüurda əks-səda doğurması, hadisələrə sürətli və çevik reaksiyanın verilməsi, zamanında hadisələrin satirik təsvirinin çəkilməsi və s. bu kimi cəhətlər karikatura rəssamını digər yaradıcı şəxslərdən fərqləndirir. Azərbaycan karikatura sənətinin banisi sayılan Əzim Əzimzadənin, Oskar Şmerlinqin və Rotterin Molla Nəsrəddin jurnalının ərsəyə gəlməsində mühim xidmətləri var. Məlumdur ki, "Molla Nəsrəddin"in yaradıcısı Cəlil Məmmədquluzadə tükənməz bir ideya verici olaraq özü mövzuları "Molla Nəsrəddin"çilərə verirdi. Azərbaycan mühitini və məişətini, xalqımızın həyatını və psixologiyasını dərindən öyrənmiş Oskar Şmerlinqin deyilən fikri, söylənilən hadisəni dərhal qavramaq qabiliyyətinə malik olduğu haqqında Həmidə xanım Məmmədquluzadənin sözləri fikrimizi təsdiq edir. O yazır: "Jurnalın şəkillərinin planını hazırladıqdan sonra Mirzə Cəlil Şmerlinqin və Rotterin yanına gedib şəkillərin səciyyəsini onlara izah edirdi... Mirzə Cəlil Şeytanbazarda yaşayan tipləri xatırlatmağa məcbur olurdu… Şmerlinqin deyilən fikri dərhal qavrayıb gözəl karikaturalar çəkməsi Mirzə Cəlili heyran edirdi.

Karikatura satiranın şəkil variantı və ya forması hesab edilə bilər. İnkişafa, tərəqqiyə sədd çəkən köhnəlmiş düşüncənin, adət-ənənələrin, mənəviyyatdakı eybəcərliklərin tənqidi kari-katura sənəti üçün əzəli-əbədi mövzudur. Forma və ifadə

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

vasitələrinə görə hər hansı bir xalqın mədəniyyəti üçün unikal hadisədir.

Karikatura istedad, qabiliyyət, zəhmətkeşlik və həssaslıq tələb edən sənətdir. Əlbəttə ki, bu deyilənlər birləşəndə yaranan əsər, həqiqətən, sənət əsəridir. Və həqiqi sənət əsərləri kimi karikaturalar həmişə yaşayacaq, xatırlanacaq, illər ötsə də, rüzgarlar dönsə də, bu sənət əsərləri solmaz, əbədiyaşar olacaqdır.

Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans
9 iyun 2024 / 21-25
Fundamentals of Science and Education VIII International Scientific Conference
9 june 2024 / 21-25
DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

**Vahid Məmmədov**
Naxçıvan Dövlət Universiteti
sənətşünaslıq üzrə fəlsəfə doktoru
vahidmemmedli31@gmail.com

# XALQ ÇALĞI ALƏTLƏRİ İFAÇILIĞI İXTİSASINI TƏDRİS EDƏN MÜƏLLİMLƏRİN HAZIRLANMASINA DAİR TÖVSİYƏLƏR

***Açar sözlər:*** *musiqi, pedaqoji, xalq çalğı, təhsil, ixtisas*
***Keywords:*** *music, pedagogy, folk instrument, education, specialty*

İnstrumental ifaçılıq xalq çalğı alətləri ixtisası tədris edən müəllimin peşə fəaliyyəti. Ali musiqi təhsili verən müəssisələrdə xalq çalğı alətləri instrumental ifaçılıq ixtisası tədris edən müəllimin peşə fəaliyyəti bu gün az öyrənilib tədqiq olunan məsələ kimi, pedaqoji elmin də həll etməyə çalışdığı problemlərlə, demək olar ki, uyğundur. İnstrumental ifaçılıq ixtisası üzrə musiqi müəllimliyi sahəsində təhsil alan tələbələrin daxili mədəniyyətinin səviyyəsi, gələcəkdə musiqiçi müəllimin necə olacağından, pedaqoji fəaliyyətini necə həyata keçirəcəyindən, auditoriyada və yaxud sinifdə qarşısına qoyulan tələbləri nəzərə ala biləcəyindən, yaxud bilməyəcəyindən çox asılıdır. Heç şübhəsiz ki, pedaqoji təhsilin qabaqcıl nəzəriyyəsi və təcrübəsi cəmiyyətin özünün irəliyə addım atmasına gətirib çıxaracaq meyardır.

Respublikamızda gənc nəslin dövrümüzün tələblərini nəzərə alaraq inkişaf prinsiplərinə uyğun zövqünü formalaşdırmaq, gənclər arasında incəsənətin hər cür təzahürünə imkan yaratmaq, fəal həyat mövqeyini inkişaf etdirmək, incəsənətin

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

estetik tərbiyə sisteminin əsas vəzifəsidir. Azərbaycan gənclərinin bu mühüm problemini həll etmək üçün hər sahədə müasir dövrün tələblərinə uyğun yüksək səviyyədə innovasiyaları dərindən mənimsəyən, bilik və bacarıqlar sisteminə yiyələnmiş yüksək ixtisaslı müəllimlərə ehtiyacı var. Müəllim sənətinin isə ümumilikdə öz peşəsinə daim məsuliyyətlə yanaşan, yeniyetmə gənclərə ehtiyacı var. Dünya praktikasında təsdiqini tapmış, praqmatik yenilikləri gənc nəslə aşılamaq müəllimin əsas peşə və vətandaşlıq borcu olmalıdır. Pedaqoji sahə mahiyyətcə mürəkkəb və çoxşaxəli olmaqla istənilən ixtisasda müəllimin qarşısında çətin tələblər qoyur. Pedaqoji fəaliyyət göstərən müəllim eyni zamanda metodist, tərbiyəçi və psixoloq olmalıdır. "Tədris metodikası – hər hansı bir fənni şagirdlərə daha yaxşı mənimsətmək üçün istifadə olunan qaydalar və yollar sistemidir" (Orxanbəyli, 1984: 17).

Musiqi müəllimliyi yüksək dərin biliklər tələb edən peşə kimi mərhələli təhsilə cəlb olunur ki, bu da əvvəl uşaq musiqi məktəbi, kollec və sonda incəsənət universitetləri, yaxud konservatoriyada başa çatır. Məqalədə araşdırmağa çalışdığımız mövzu musiqi sahəsində ali təhsil müəssisələrində instrumental ifaçılıq xalq çalğı alətləri ixtisası tədris edən müəllimlərin peşə problemlərini öyrənməkdir. Hələ keçən əsrdə, 30 iyun 1920-ci ildə bu sahədə Xalq Maarif idarəsinin kollegiyasında şərq musiqisi üzrə "Qısa müddətli pedaqoji musiqi kursları" təşkil etmək haqqında qərar qəbul edilmişdi. Vaqif Əbdülqasımov bu barədə belə yazır: Azərbaycanda xalq musiqisi sahəsində savadlı musiqiçi kadrların, müəllimlərin, Şərq və Avropa musiqilərini nəzəri baxımdan bilən və onu öyrədən mütəxəssislərin olmaması ilə əlaqədar təşkil edilmiş "Qısa müddətli pedaqoji kursları"n məqsədi Şərq musiqisi üzrə müəllim hazırlamaq idi (Əbdülqasımov, 1989: 80).

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

İnstrumental ifaçılıq xalq çalğı alətləri ixtisası tədris edən müəllimlər hansı biliklərlə auditoriyaya daxil olur? Yaxud məktəbə gələn instrumental ifaçılıq ixtisası tədris edən müəllim musiqi sahəsinin özünəməxsus çətinliklərinə hazırdırmı? Qeyd etmək lazımdır ki, instrumental ifaçılıq ixtisası tədris edən müəllim peşəsi özlüyündə fundamental sahə olub müəllimdən həm peşəkar ifaçılıq qabiliyyəti, həm də müəllimə xas olan təmkin, savad, vərdiş və bacarıq tələb edir. Sadaladığımız bir çox xüsusiyyətləri özündə birləşdirən ifaçılıq ixtisası üzrə musiqi müəllimi peşəsinə gəlincə onun tam təsviri yoxdur ki, musiqi müəlliminə xas olan, əsas tələbləri əks etdirən şərti modeli yaratmaq mümkün olsun. Belə bir modelin yaradılması bizə istənilən musiqi aləti ifaçılığı ixtisasını tədris edən müəllimin peşə fəaliyyətinin əsas aspektlərini müəyyən etmək və bu fəaliyyət üçün unikal müəllim obrazını yaratmaq imkanı verər. Bu model isə öz növbəsində musiqi peşəsinin müxtəlif sahələrdə peşəkar ifaçı mütəxəssislərə və müəllimlərə olan ehtiyacını ödəyər.

İfaçılıq ixtisası tədris edən musiqi müəlliminin peşəkar-pedaqoji istiqamətdə ixtisaslaşması onun şəxsiyyətinin təkcə fərdi keyfiyyətlərinin deyil, həm də ən mühüm ümumi və xüsusi bilik, bacarıq və vərdişlərə yiyələnməsinin, formalaşmasının və təkmilləşdirilməsinin əsas şərtidir. Heç təsadüfi deyil ki, keçən əsrin əvvəllərindən fəaliyyətə başlayan Bakı konservatoriyasında bu məsələlərin həllini nəzərdə tutan “Şərq şöbəsi” Üzeyir bəyin təşəbbüsü ilə yaranmışdı. “1921-ci ilin oktyabr ayında dərslərə başlayan konservatoriyada beş şöbə fəaliyyət göstərirdi; fortepiano, vokal, orkestr ifaçılığı, nəzəri-bəstəkarlıq və “Şərq şöbəsi”. “Şərq musiqisinin öyrənilməsinin praktik və nəzəri inkişafı ancaq konservatoriyada mümkündür” (Hacıbəyov, 1985: 47).

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

Tələbələrdə ifaçılıq vərdişlərinin formalaşdırılması. İnstrumental ifaçılıq xalq çalğı alətləri ixtisası tədris edən musiqi müəlliminin peşəkar fəaliyyətə hazırlanması ali musiqi təhsili verən müəssisələrdə tamamlanır. Bu fəaliyyətin məzmunu bəşəriyyətin inkişaf etdirdiyi bütün mənəvi sərvətlər haqqında biliyə əsaslanan pedaqoji cəhətdən düşünülmüş sosial mədəni sifarişin məhsuludur. Musiqi pedaqoji təhsilinə tətbiq edilən bilik-bacarıq təcrübədə qazanılan peşəkar səriştə və texniki ifaçılıq imkanları anlamına gəlir. İnstrumental ifaçılıq ixtisası tədris edən musiqi müəllimi tədris etdiyi hər hansı alətin peşəkar ifaçısı olmaqla yanaşı, musiqi ədəbiyyatı, nəzəriyyə və harmoniyanı da yaxşı bilməlidir. Bütün bunlara əlavə olaraq, əvvəl də qeyd etdiyimiz kimi o, müəyyən səviyyədə fəlsəfəni, estetikanı, psixologiyanı və pedaqogikanı da yaxşı bilib bu bilikləri dərsin gedişatı boyu tətbiq etməyi bacarmalıdır.

Bütün sadalanan arqumentlərə onu da xüsulilə əlavə etməyə ehtiyac var ki, ifaçılıq ixtisası tədris edən musiqi müəllimliyində pedaqoji fəaliyyətin səmərəliliyi yalnız bu qabiliyyətlərin kifayət qədər yüksək səviyyəsi və bunlara digər xüsusi biliklərin tətbiq edilməsi ilə təmin edilə bilər. Musiqi müəlliminə lazım olan başlıca xüsusiyyətlər artistlik, bədii təsvir vasitələri və oxumaq qabiliyyətidir ki, bu da dərsin kifayət qədər yaradıcı keçməsinə yardımçı olur. Musiqi müəlliminə lazım olan bu keyfiyyətlər əgər qeyri-kafi inkişaf edibsə dərs səviyyəsi alınmır, tələbənin diqqətini cəlb edə bilməyən müəllim pedaqoji işin öhdəsindən gələ bilmir. Bu isə olununla nəticələnir ki, tələbədə musiqi ifaçılığı sənətinə antipatiya yaradır və onun bu sənəti tamamilə tərk etməsinə gətirib çıxarır.

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

## Ədəbiyyat

1. Orxanbəyli, O. (1975). Tar tədrisinin metodikası. Bakı.
2. Əbdülqasımov, V. (1989). Azərbaycan tarı. "İşıq" nəşriyyatı.
3. Hacıbəyov, Ü. (1985). Xalq musiqisinin əsasları. Bakı.

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 26-29**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 26-29**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

**Siddiqə Hacıyeva**
Naxçıvan Dövlət Universiteti
Sidiqehacıyeva@ndu.edu.az

# XALQ RƏSSAMI CƏLİL HÜSEYNOVUN YARADICILIĞINDA İNSAN GÖZƏLLİYİNİN TƏRƏNNÜMÜ

***Açar sözlər:*** *məkan mühiti, təsvir elementləri, rəng çalarları, obraz*

***Keywords:*** *spatial environment, image elements, color shades, image*

Dəzgah rəngkarlığının bədii imkanları, təsvir dairəsi daha universal və əhatəlidir. Obyektiv varlığın elə bir sahəsi yoxdur ki, rəngkarlıq əsərləri üçün bədii təsvir obyekti və mənbəyi olmasın. Buna görə də rəngkarlıq əsərlərində istər bədii üslublar və istərsə də mövzu və janrlar çoxcəhətli və zəngin məna daşıyır. Klassik və müasir rəngkarlıq sənətində bəşər həyatının ən mürəkkəb fəlsəfi, əxlaqi, ictimai, mənəvi, estetik problemləri, dramatik, komik, epik, lirik və s. hadisələri hərtərəfli, çoxşaxəli, zəngin, emosional təsir qüvvəsi olan obrazlar dilində canlanır. Bununla əlaqəlidir ki, hər bir rəssam öz yaradıcılığında insan gözəlliyini tərənnüm edən qadın obrazına müraciət etmişdir.

Xalq rəssamı, professor Cəlil Qafar oğlu Hüseynov Azərbaycan rəngkarlığında özünəməxsus yeri olan sənətkarlardandır. Rəssam 1977-ci ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu, 1982-ci ildə isə Xarkov Dövlət Rəssamlıq İnstitutunun monumental rəngkarlıq ixtisasını bitirmişdir. Elə həmin illərdən başlayaraq ABŞ,

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

Fransa, Almaniya, Rusiya, Türkiyə, İran, Gürcüstan, Suriya, BƏƏ və digər ölkələrdə təşkil olunmuş yaradıcılıq sərgilərində əsərlərini uğurla nümayiş etdirməkdədir. Xalq rəssamı Cəlil Hüseynov öz yaradıcılığında rəngkarlığın müxtəlif janrlarına müraciət etmişdir. Rəssam əsərlərində qadın gözəlliyinin mütənasibliyə əsaslanan tərənnümünü məkanla əlaqələndirilmiş şəkildə mühit və insan sintezi kontekstində təsvir edərək bir-birindən dəyərli əsərlərə müəlliflik etmişdir. "Emalatxanada" ( kətan, yağlı boya, 129x90, 1998), "Yatmış qadın" ( kətan, yağlı boya, 118x87, 1999), "Ağ geyimli qadın" (kətan, yağlı boya, 115x92, 2002), "Qız albalı ilə" (kətan, yağlı boya, 117x100, 2002) , "Etüd" (kətan, yağlı boya, 30x20, 2007), "Çılpaq qadın" (etüd, 30x20, 2011), "Oturmuş qadın (kətan, yağlı boya, 100x50, 2019) qeyd etmək yerinə düşərdi.

Rəssamın nyu fiqurlar üzrə yaratdığı etüdlərində çılpaq fiqurun plastikasının aşkara çıxarılmasında istifadə etdiyi tonal kontrastlar, əsasən, fona düşən kölgə vasitəsilə aydın seçilir. Onun hər zaman bu tipli əsərlərində qadın bədənin plastikasını yaratmaqla kifayətlənməyən yaradıcı xüsusiyyəti daxili psixologizmin yüksək bədii ifadəsi ilə həmin əsərləri zənginləşdirmişdir. Bunun üçün istər köməkçi detalların istifadəsi ilə, istərsə də məqsədli fon üzərində həll edilmiş canlı naturalar məhz məkan və insan sintezinin uğurlu əlaqələndirilməsində həyata keçirilmişdir.

Tabloda reallıqdan dekorativliyə keçid, eyni zamanda tabloda kubist meyllərin təsirləri ilə də öz əksini tapmışdır. Elementlərin həndəsi formalarda, düz, kəskin bucaqlarla verilməsi, eləcə də bir neçə detalın üst-üstə gələrək alt qatın rəng dəyərini itirmədən örtüyün incə səthinin zərif formalarla hiss etdirilməsi əsərin yüksək bədii ifadə vasitələridir. Bunun üçün rəssam güclü əks olunan işığı rəng qatından keçirərək

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

onun ton xüsusiyyətini dəyişmədən tərənnüm etməyi bacarmışdır. Arxa hissənin sol yuxarı qismində yaşılımtıl üçbucağın üzərində açıq-boz rəngli eyni həndəsi formalı elementlərin həlli və tablonun sağ hissəsində saçların düz kəsik formada aşağıya doğru gəlməsi çarpaz simmetriya adlandırıla biləcək bədii təsvir formasını meydana gətirmişdir. Sənətkar masanın üzərində verilmiş üçbucağın rəng ləkələrini arxa fona uyğun həll etməklə, digər hissələrdə tünd rənglərin üzərində açıq və əksinə verilmiş nöqtəli və xətti ifadələrlə dekorativ rəngkarlığın bədii xüsusiyyətlərindən ustalıqla yararlanaraq fərdi yaradıcı üsluba malik sənət əsərini meydana gətirmişdir.

Cəlil Hüseynovun hələ 1998-ci ildə yaratdığı "Emalatxanada" əsəri özünün təsvir formasına görə digər əsərlərdən fərqlənsə də, rəssamın sadiq qaldığı dekorativ həll burada da özünü göstərməkdədir. Boz və ağ kölgələrin dəyişən effektlərlə yaratdığı fon rəssamın həm də işıq-kölgə münasibətlərinin dərin həllini verməsi ilə həyata keçirilmişdir. İşığın birbaşa modelin üzərinə salınmasında rəssamın əsas olanı daha önə çəkməsi, həm də digər detalların əhəmiyyətsiz şəkildə mənasız tərənnümü kimi qeyd edilə bilməz. Əsərdəki insan və məkan əlaqələndirməsini məharətlə həyata keçirən rəssam uyğunluq prinsipi əsasında hər bir təsvirin modelin ümumi ruh halı ilə əlaqə yaratmasına çalışmışdır. Bunu hər şeydən əvvəl gözlərini qapayaraq gündəlik geyimində yuxuya getməyə çalışan obrazın sanki bir qədər yorulmuş, istirahət etməyə çalışması kimi qəbul etmək olar. Onun dizlərinə qədər olan boz ətəyi, qısaqol firuzəyi köynəyi, ağ mirvari boyunbağı, qızılı halqa sırğaları və başının altına qoyduğu balış əvəzinə, qəhvəyi ədyal forması onun adi yataqda deyil, yorularaq dağınıq otağın bir hissəsində özünə yer tapdığını göstərir. Yarımçıq qalmış çay fincanı,

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

vazanın içindən bir qədər ətrafa dağılmış meyvələr nəzərə çatdırılmağa çalışılan bu effekti gücləndirir.

Dünya təsviri sənətdə mövcud cərəyan və bədii prinsiplərin Cəlil Hüseynov yaradıcılığında istifadəsi və bədii dərki istedadlı rəssamın bu istiqamətdə olan əsərləri üzərində təhlil zamanı öz təsdiqini bir daha tapmışdır.

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 30-34**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 30-34**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

**Babək Allahverdiyev**
Milli Müdafiə Universiteti
Hərbi Elmi Tədqiqat İnstitutu
doktorant
binnsc6@gmail.com

# PEŞƏKAR VƏ KARYERA İNKİŞAF PROQRAMLI HƏRBİ TƏLİM VƏ TƏDRİSİN MÜŞTƏRƏK ƏMƏLİYYAT ZABİTLƏRİNİN YETİŞDİRİLMƏSİNDƏKİ ROLU VƏ ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *hərbi peşəkar inkişaf təlimi, intellektual bilik və bacarıq, müştərək əməliyyatlar, zabit istedadı*

***Keywords:*** *military professional development training, intellectual knowledge and skills, joint operations, officer talent*

Günümüzdə baş verən və gələcək müasir müharibələr mühitində müştərək əməliyyatların təşkili üçün təcavüzkarla qarşıdurmanın əsasını təşkil edən döyüş təchizatı ilə təminatdan əlavə rəqibə qarşı üstün mübarizə metodunun ortaya qoyulması üçün xüsusi tədris proqramlı hərbi peşəkar inkişaf təlimlərinin vasitəsi ilə intellektual bilik və bacarıqlı zabitlərin yetişdirilməsinin vacibliyi üzərində dayanılmaqdadır. Müştərək əməliyyatların aparılmasında müvəffəqiyyətin əldə olunması üçün tətbiq edilməsi nəzərdə tutulan hərbi peşəkar inkişaf proqramlı təlimlər nəticəsində ehtiyacımız olan intellektual və hərbi gücün praktiki təcrübəsinə yiyələnmiş strateji düşünmə qabiliyyətinə malik zabit resursunun yaradılması və onların hazırlanması üzrə metodların müəyyənləşdirilməsi əsas məqsəd olaraq qarşıya qoyulmuşdur. Məqsədə müvafiq olaraq vurğu-

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

lamalıyıq ki, indiki dövrdə müharibə sahəsində əldə olunacaq müvəffəqiyyəti say üstünlüyü və ya ən yaxşı texnologiyaya sahib olmaqda görmənin düzgün olmadığı və bu texnologiyanın rəqiblərin də əlində ola biləcəyi danılmazdır. Məhz elə bu düşüncə ilə yola çıxaraq əlimizdə olan zabit istedadlarının daha səmərəli və keyfiyyətli şəkildə yetişdirilməsi, bununla yanaşı zabitlərin idarəetmə qabiliyyətlərinin təkmilləşdirilməsi çərçivəsində ən perspektivli kadrların müəyyən edilərək hərbi peşəkar inkişaf təlimlərinə cəlb edilməsi ilə bərabər tədris prosesli karyera inkişaf təlimlərinə göndərilmələri və bu təlimlərdən sonra əldə etdikləri bacarıqlarını nümayiş etdirmələri üçün müştərək əməliyyatlarda vəzifə alaraq iştirak etmələrinin həyata keçirilməsi nəzərdə tutulan başlıca planlı vəzifə olmuşdur. Kürəsəl inkişafın sürətlə irəlilədiyi indiki dövrdə müharibə və münaqişələrin xarakterində baş verən sürətli və genişmiqyaslı dəyişiklikləri də nəzərə alsaq, qarşılaşa biləcəyimiz müasir müharibələrə məqsədyönlü hazırlıq üçün stratejik düşünmə qabiliyyətinə malik, hərbi gücün tətbiqini milli strategiyaya uyğun idarəetmə məharətli zabitlərin hazırlanması və yetişdirilməsi baxımından lider yetişdirmə metodlarımızda yeni inkişaf yolu seçilmiş və bununla bağlı fəaliyyətlərə başlanılmışdır (Babayev, 2023: 7-15).

Müştərək Əməliyyatlar anlayışının zabitlərə tədqiq edilməsi prosesinə, ilkin mərhələlərdən başlayaraq orta və yuxarı səviyyəli proqramlara qədər davam edən dinamik bir fəaliyyət olaraq baxılmalı və həyata keçirilməlidir. Bununla bərabər, hərbi peşəkarlıq üzrə inkişaf təlimlərini uğurla başa vurmuş komandir kateqoriyalı lider zabitlərin müştərək qərargah fəaliyyətlərində iştirak etməklə qazandıqları təcrübə və nailiyyətlərini praktiki olaraq tətbiq etmələri üçün icrası zəruri hesab edilən təyinatlar da bir kollektiv işi olaraq müəyyən

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

edilməli və həyata keçirilməlidir (Mullen, Admiral, Navy, 2011: 38).

Sözügedən səbəblər günbəgün liderin inkişafı mövzusundakı fasiləsiz təlimlərin əhəmiyyətini və tədrisə olan tələbatı artırır. Daha doğrusu, düşmənə qarşı bütün səviyyələrdə intellektual üstünlüyə sahib zabitlərə olan ehtiyacı şəffaflığı ilə ortaya qoyur. Bütün bunları təmin etməkdən ötrü müharibənin dəyişən xarakteri ilə ayaqlaşmaq məqsədi ilə siyasi baxış, davranış və mədəniyyətləri dəyişdirmək üçün hərbi peşəkar inkişaf təlimi proqramlarının hər mərhələsində uyğunlaşma, istedadların idarə edilməsi səyləri və mütəmadi tətbiq edilməsi zəruri sayılan yeniliklər davam etdirilməlidir (Avcı, Dönmez, Bilgiç, Küpeli, 2020: 1-15).

Arzu olunan bu tip rəhbər və zabit heyətinin müəyyən edilməsi və onların keyfiyyətli hazırlanması istiqamətində görüləcək səmərəli tədbirlərin planlaşdırılması artıq bizə onu deməyə əsas verir ki, biz həmin hərbi peşəkar inkişafa doğru irəliləməyə başlamışıq. Hərbi peşəkar inkişaf təlimi və istedad hazırlığının təkmilləşdirilmiş öyrənmə prosesinin son hədəfi ilə bağlı baxış nəzəriyyəsi aşağıdakı kimi təqdim olunur.

• İstedadları, müştərək əməliyyatların rəhbərləri, yüksək strateji səviyyəli və akademik qərargah zabitləri kimi işə hazırlamaq üçün zəruri olan əsas bilik və bacarıqlar üzrə tədris metodlarını təmin etməli;

• Milli maraqlara toxunan problemlərin hərbi ölçülərini izah edən, mövzunu siyasi səviyyədə əhatə edən və müştərək əməliyyatlar çərçivəsində etibarlı hərbi variant təkliflərini təqdim etməli;

• Böyük güclərin rəqabəti ilə daim inkişafda olan yüksək texnologiya şəraitində, müharibələrin dəyişmə sürətinin

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 30-34**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 30-34**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

dinamik artımı dövründə sürətli uyğunlaşma və yeniliyi prioritet olaraq qəbul etməli;

• Müttəfiq və birgə fəaliyyətləri bütünləşdirmə imkanları daxil olmaqla əməliyyat və strateji səviyyələrdə müştərək əməliyyatlar çərçivəsində müharibə aparmanın tətqiqini təsis etməli,

• Mübarizə və əməliyyat yolu ilə taktiki fəaliyyətləri icra və uyğunlaşdırmağı bacaran, strateji düşünmə qabiliyyətinə malik zabitlərin yetişdirilməsini təmin etməlidir.

Hərbi peşəkar inkişaf təlimlərinin uyğun xarakterli və daim yenilənmə şəraitində aparılması mütəmadi təkmilləşdirmə, innovasiya və qiymətləndirmə strukturunun bir hissəsidir və həyata keçirilməsi zəruri önəm kəsb edir. Digər tərəfdən, yaradıcılıq, intellektual təcrübələr, döyüş sənəti və elmi ixtisaslaşmaya önəm verilərkən tarixi biliklərin də dərinləşdirilməsi vacibdir. Bu tapşırıqların yerinə yetirilməsi işin başa çatması deməkdir anlamında qəbul edilməməlidir. Müharibə ilə bağlı məsələlər, geosiyasət, texnologiya və təhsillə bağlı metodlar dəyişməyə davam etdiyi üçün hərbi peşəkar inkişaf təlimi sistemi də bu dəyişikliyə məruz qalacağından bu templə ayaqlaşılmalıdır (Milley, Hyten, Mcconville, Berger, Gilday, Goldfein, Lengyel, Raymond, 2020: 1-10).

Gələcəyə baxanda görürük ki, gələcək bizdən təcili və təxirəsalınmaz dəyişikliklər tələb etməktədir. Günümüzdə baş verən mütəmadi qeyri-müəyyənlik və yıxıcı dəyişim içərisində aparılacaq müharibə və münaqişələrdə sahib olduqları intellektual bacarıqlarla rəqiblərimiz üzərində üstünlüyü təmin edəcək zabitləri müəyyənləşdirib seçməliyik. Lakin, ehtiyacımız olan intellektual üstünlük və zehni çevikliyin yalnız hissə-hissə verilən təlimlə və ya keçmiş təcrübə ilə əldə olunmayacağını, bununla bərabər təlim, tədris, məşqlər və digər

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 30-34**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 30-34**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

hərbi peşəkar yönümlü kompleks tətbiqlərin birləşməsi ilə yaradıla biləcəyini nəzərə almalıyıq. Bu zərurətin həyata keçirilməsi üçün sürətli və eyni zamanda, davamlı olan bir dəyişikliyi nəzərdə tutmaqla dərhal başlayan bir yol müəyyən etməliyik (5).

## Ədəbiyyat

1. Babayev, S.M. (2023). Taktika və hərbi idarəetmənin inkişafında müharibələrin rolu. Bakı, Hərbi bilik, № 4, s.7-15.
2. Mullen, M. G., Admiral, U.S. Navy (2011). Joint Operation Planning, Joint Publication 5-0, II-1, 38 p.
3. Avcı, E., Dönmez, A.E., Bilgiç, A., Küpeli, H. (2020). Yarının savaş yöntemleri için bugünün müşterek harekat subaylarının yetiştirilmesi, Türkiye Cumhuriyyeti Jandarma ve Sahil Güvenlik Akademisi araştırma merkezleri müdürlüğü tarafından ingilizceden türkçeye tercüme edilmiş belge, ANKARA, Genelkurmay Askeri Mesleki Gelişim Eğitimi ve Yetenek Yönetimi Vizyon ve Rehberliği, 1-15 s.
4. Milley, M.A., Hyten, J.E., Mcconville, J.C., Berger, D.H., Gilday, M.M., Goldfein, D.L., Lengyel, J.L., Raymond, H.V. (2020). Developing Today’s Joint Officers for Tomorrow’s Ways of War, The Joint Chiefs of Staff Vision and Guidance for Professional Military Education & Talent Management, 1-10 s.
5. Published by the Joint Chiefs of Staff. (2020). https://www.jcs.mil/Doctrine/. 1-10p.

Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans
9 iyun 2024 / 35-38
Fundamentals of Science and Education VIII International Scientific Conference
9 june 2024 / 35-38
DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

**Ayşən Şirinova**
Azərbaycan Dillər Universiteti
doktorant
aysen.sirinova@list.ru

# SUBYEKT VƏ SUBYEKT ZONASININ İNKARLIĞI

***Açar sözlər:*** *inkarlıq kontrastiv kontekstdə, subyekt inkarlığı, struktur, qrammatik vasitələr, subyekt zonası*

***Keywords:*** *negation in contrastive context, subject negation, structure, grammatical devices, subject zone*

Elmi ədəbiyyatlarda bir qayda olaraq göstərilir ki, hər cümlənin predikatı inkar olunursa belə, inkarlıq ümumi inkarlıq, hər hansı bir digər üzv, o cümlədən cümlənin baş üzvlərindən biri – mübtəda inkar olunursa, xüsusi inkarlıq ifadə olunur. Adından göründüyü kimi biz bu tezisdə subyekt və onun təsir sahəsinə aid olan, başqa sözlə subyektin təsir mikrosahəsinin inkarlığını şərtləndirən ifadə vasitələrinin ierarxiyasının müəyyənləşdirilməsini nəzərdə tutmuşuq. Təbii olaraq bu məsələləri müqayisə olunan dillərin faktik materialları əsasında araşdırmamızı aparacağıq. İlk növbədə, həmin mətn parçalarında subyekt və onun mikrosahəsini, yəni onu təyin edən sahəni müəyyənləşdirib sonra rematik inkarlığın bir tərəfdən strukturunu, digər tərəfdən isə funksional-semantik cəhətini üzə çıxarmağa çalışacağıq. Əlbəttə, burada kontrastiv kontekstin rolu, həmçinin, intonasiya, vurğu, pauza kimi faktorların qarşılıqlı əlaqə və təsir vəziyyətlərinin təhlilinə xüsusi önəm verilməsi nəzərdə tutulur, ona görə ki, hər hansı bir mətndə, cümlədə bunlar nəzərə alınmazsa, funksional-semantik rematik inkarlıq sahəsinin mikrosahələr strukturun-

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

dan bəhs etmək əbəs olar; çünki bunların hamısının qarşılıqlı əlaqəsi olmasa nə mətn yarana bilər, nə kommunikasiya yaranar, nə də ötürülən informasiya qəbul edənlər tərəfindən anlaşılmaz.

Ümumi və xüsusi inkarlıqdan bəhs edərkən V.N.Bondarenko yazır: *"1) Brat ne khodil vchera v biblioteku; 2) Ne brat khodil vchera v biblioteku; 3) Brat khodil ne vchera v biblioteku; 4) Brat khodil vchera ne v biblioteku"* (Bondarenko, 1983: 141).

Biz bu nümunələri təsadüfi olaraq gətirmədik. Həmin strukturda olan semantikanı müqayisə etdiyimiz dillərdə ifadə etməyimiz yerinə düşər. İlk növbədə onu vurğulamaq istərdik ki, həm ingilis, həm də Azərbaycan dillərində orada işlədilən məzmunu bir-birindən xeyli fərqli strukturda vermək mümkündür. Orada verilmiş birinci cümlədəki məzmunu – *Brother did not go to the library yesterday. - Qardaş kitabxanaya dünən getmədi.* Görünən odur ki, hər bir dilin strukturundan asılı olaraq söz sırası fərqlidir və eyni zamanda, hər üç dildə inkarlıq predikatla müəyyənləşir.

İkinci cümləni ingilis dilində *"Not brother went to the library yesterday"* kimi vermək olar, yəni qardaş deyil, kimsə gedib, yəni hərəkət ifadə edən subyekt artıq qardaş deyil, kimsə başqa bir (əgər varsa). Azərbaycan dilində qardaşım deyil, dünən kitabxanaya gedən, burda da yenə hərəkəti icra edən subyektin qardaş olmaması anlamı başa düşülür.

Üçüncü cümləni nəzərdən keçirdikdə ingilis dilində: *"Brother yesterday didn't go to the library". - Qardaş dünən getmədi kitabxanaya.* Burada aksent hər iki dildə "dünən" sözü üzərinə düşür, yəni zaman zərfliyi inkar olunur və məzmun belə alınır ki, məhz qardaş başqa vaxt deyil, "dünən" kitabxanaya getməyib.

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 35-38**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 35-38**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

Dördüncü cümlədə isə ingilis dilində *"Brother yesterday went not to the library". - Qardaş dünən kitabxanaya deyil, "harasa" getdi.* Göründüyü kimi həmin rus dilində dörd variantda işlədilən və hər birində təxminən eyni məzmun ifadə edən, lakin hər bir cümlədə fərqli aksent ifadə edən predikat inkarda olmaqla birində "qardaş"ın hərəkəti icra etmədiyi (getmədiyi), ikinci də "qardaş"ın deyil, təxmini kiminsə hərəkət icra etdiyi, üçüncüdə "dünən" sözünün yəni hərəkətin ən azı dünən baş vermədiyi, dördüncü cümlədə isə "qardaş"ın "kitabxanaya" getmədiyi, harasa başqa məkana getməsi ehtimal olunur və belə cümlələrə məhz xüsusi inkar cümlələr deyilir.

V.N.Bondarenko yazır ki, "dünyanın müxtəlif dillərində inkar əvəzlikləri və zərfləri mövcud olmama mənasını nisbi əvəzlik və zərflərin kök morfemində ifadə etməsini göstərir. Belə ki, rus dilində *"nikto" - heç kəs, hər hansı bir kəsin olmamasını, "nichei" - heç kəsə mənsub olmayan, "nekogo"* məsdərlə ifadə olunan subyekt hərəkətinin yoxluğu, *"nechego"* hərəkət obyektinin olmaması və s. ifadə etmək iqtidarındadır (Bondarenko, 1983: 90).

Qeyd etməliyik ki, müqayisə etdiyimiz dillərdə də həmin məsələ olduğu kimidir. Hər iki müqayisə edilən dillərdə *nobody* – heç kəs (hərəkəti icra edən və yaxud obyekt), *no one* – heç kim, *nothing* – heç nə, heç bir şey (hadisə, əşya, təzahür), *never* – heç zaman, heç vaxt, heç vəchlə, *nowhere* – heç bir yerdə və s. bu kimi sözlər inkarlığı həm ümumi, həm də xüsusi halda kontekstdən asılı olaraq konkret halda mətnin məzmununa uyğun olaraq, həmçinin məntiqi olaraq və praqmatik olaraq çatışmazlığını göstərməklə yanaşı işlədildiyi kontekstdə asılı olaraq fərqli semantik çalarlıq ifadə etmək qabiliyyətindədir.

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

## Ədəbiyyat

1. Bondarenko, V.N. (1983). Otritsanie kak logiko-grammaticheskaya kategoriya / A.V.Bondarko. – Moskva: Nauka, 212 s.

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 39-44**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 39-44**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

**Samirə Mərdanlı**
Bakı Dövlət Universiteti
doktorant
mardanli.samira@gmail.com

# NİZAMİ GƏNCƏVİNİN YARADICILIĞININ TƏDQİQİ

***Açar sözlər:*** *Nizami Gəncəvi, ədəbiyyat, ədəbi məktəb, ədəbi əlaqələr, ədəbi irs*

***Keywords:*** *Nizami Ganjavi, literature, literary school, literary relations, literary heritage*

Nizami Gəncəvinin əsərləri yalnız Azərbaycan, Yaxın və Orta Şərq ədəbiyyatının deyil, eyni zamanda, dünya ədəbiyyatının görkəmli klassikləri arasında yer almışdır. Şair təkcə öz dövrünün qabaqcıl söz ustası deyil, həmçinin də Avropa intibahını bir neçə əsr qabaqlamış və dünya ədəbiyyatının görkəmli nümayəndəsi kimi çıxış etmişdir. Nizami Gəncəvi istər öz yaşadığı dövrdə, istərsə də özündən əsrlər sonra əsərlərinə nəzirələr yazılmasına səbəb olmuş böyük ədəbi məktəbin banisidir (Bertels, 2017: 15).

Bu baxımdan Nizami Gəncəvinin yaradıcılığının tədqiqinə dair axtarışlarımızı həm Avropa, həm Azərbaycan, həm də İran və farsdilli mənbələrdə aparmalıyıq.

Nizami Gəncəvinin əsərlərinin Azərbaycanda öyrənilməsi prosesinə XX əsrin 40-cı illərindən başlanmış, 1939-cu ildə Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyilə əlaqədar olaraq şairin əsərlərinin elmi tədqiqi və tərcüməsi işlərinə dövlət səviyyəsində diqqət ayrılmışdır. Lakin İkinci Dünya müharibəsi dövrünə təsadüf etməsi, xüsusilə Böyük

Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans
9 iyun 2024 / 39-44
Fundamentals of Science and Education VIII International Scientific Conference
9 june 2024 / 39-44
DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

Vətən müharibəsinin başlamasına görə, yalnız 1947-ci ildə Nizaminin 800 illik yubileyi keçirilmiş və həmin dövrdə onun əsərlərinin tədqiq edilməsi, çapa hazırlanması istiqamətində xeyli iş görülmüşdür.

XX əsrin 40-cı illərində Azərbaycanın görkəmli tədqiqatçısı Həmid Araslının nəşr etdirdiyi "Azərbaycan poeziyasının parlaq günəşi-Nizami Gəncəvi" (1939), "Ölməz dastan" (1940), "Ölməz məhəbbət dastanı" (1947), "Cahanşümul sənətkar" (1947) və "Qəlb şairi" (1947) adlı məqalələrində, təkcə Nizaminin yaradıcılığını araşdırmamış, həm də, onun yaşadığı dövrdə öz yaradıcılıq nümunələri ilə Azərbaycan ədəbiyyatını zənginləşdirmiş gəncəli Əbül-Üla, Məshəti, Qivami-Mutəərrizi, Şirvanlı Xaqani və Fələki, Beyləqanlı Mücirəddin kimi sənətkarların yaradıcılığına işıq tutmuşdur. Dövrün digər bir tədqiqatçısı Mirzə İbrahimov "Dahi söz yaradıcısı" (1939) və "Böyük Nizami" (1947) adlı məqalələrində Nizaminin yaşadığı dövrlərdən əvvəlki Azərbaycanın siyasi mənzərəsinə toxunur və Nizami Gəncəvinin yaradıcılığını insanlığın şərəf mahnısı adlandırır: "Onun təsvirində insan təbiətin ən kamil və yüksək məhsulu, xilqətin tacıdır". Yazıçı vurğulayır ki, "Xəmsə" yüzlərlə Azərbaycan misalları, el ədəbiyyatından alınmış Azərbaycan lətifələri ilə doludur (2). Məmməd Mübarizin əsər və məqalələrində isə daha çox Nizami Gəncəvinin yaradıcılığı geniş araşdırılmış, "Nizami yaradıcılığında utopik sosializm" (1940), "Ölməz dastan" (1941) və "Nizami və Vətən" (1947) məqalələrində isə dahi şairin yaradıcılığı, onun yaşadığı cəmiyyətdəki ictimai-iqtisadi bərabərsizliyi görmək, haqsızlığa, zülmə qarşı cəsarətli çıxışlar edib dövrünün ictimai-siyasi quruluşunu amansız tənqid etmək kimi başlıca xüsusiyyətləri haqqında məlumat verilir. Məmməd Mübariz əsasən Nizami Gəncəvinin "Xosrov və Şirin",

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 39-44**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 39-44**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

"İskəndərnamə" kimi əsərlərinə müraciət etmiş, müəllif şairi doğma yurdunu sevən, onun gözəlliklərini tərənnüm edən vətənpərvər kimi xarakterizə etmişdir (2).

Nizami Gəncəvi yaradıcılığını tədqiq etmiş M.Arifin fikrincə, Nizami dühası Şərqlə Qərb arasında etibarlı körpü yaratmış, iki mədəniyyəti əlaqələndirmiş və sonralar bu körpüdən onlarla şair və yazıçı istifadə etməklə öz mədəniyyətlərini zənginləşdirmişlər. Nizami ədəbi irsinin dünya dillərinə tərcüməsi və onun həyat və yaradıcılığının araşdırılması qərbdə, Qərb tədqiqatçılarının əsas fəaliyyət istiqamətlərindən olmuşdur (Mirzəbəyova, 2021: 44).

Gülçin Babayevanın "Nizami Gəncəvi irsi Barat Zəncaninin tədqiqatlarında" adlı məqaləsi və Nizaminin yaradıcılığına həsr etdiyi "Nizami Gəncəvi İran ədəbiyyatşünaslığında: tədqiqatlar, elmi-tənqidi mətnlər və tərcümələr" adlı monoqrafiyası bu sahədə olan tədqiqatları bir növ vahid məcmuədə birləşdirmişdir. XX əsr İran tədqiqatçılarının əsərlərinə diqqət yetirdikdə görərik ki, Vəhid Dəstgirdi, Səid Nəfisi, Əli Əkbər Şəhabi, Zəbihulla Səfa, Bəhruz Sərvəti və başqalarının tədqiqat və nəşrlərində nizamişünaslığın təşəkkülü və inkişafı yolunda mühüm addımlar atılmışdır (2).

Qeyd etmək lazımdır ki, İranda V.Dəstgirdi, S.Nəfisi, B.Sərvəti tədqiqatları ilə başlayan Nizami əsərlərinin çap işi sonralar da davam etdirilmişdir. Əbdülhüseyn Zərrinkub, Barat Zəncani, Əhməd Mənzuri, Əmin Seyid Hüseyni, Seyid Hüseyn Rza, Səccadi Ziyaəddin, Mehdi Mahuzi, Əlirza Nəbilu, Məhəmməd Rouşən, Məhəmməd Xatəmi və başqaları Nizami Gəncəvi irsinin nəşri və tədqiqi işində əhəmiyyətli işlər görmüşlər.

Gülçin Babayeva yazır ki, Nizaminin "Divan"ı və "Xəmsə"sinin nəşri işində İran alimi Barat Zəncaninin rolu xüsusi

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

olaraq qeyd edilməlidir. Belə ki, əslən azərbaycanlı olan akademik Barat Zəncani Təbriz və Tehran Universitetlərində təhsil almış və Nizami Gəncəvi "Xəmsə"sinə daxil olan poemaların, həmçinin, şairin "Divan"ının elmi tənqidi mətnini hazırlamış, Tehran Universiteti nəşriyyatında nəşr etdirmişdir.

Onu da qeyd etmək lazımdır ki, dünyada böyük nüfuza malik mənbə kimi qəbul olunan Vəhid Dəstgirdi nəşrlərində əslində çox ciddi nöqsanlar da mövcud idi. Vəhid Dəstgirdi mətnləri hazırlayarkən Nizami beytlərinə yazdığı şərhlərdə şairin "Xəmsə"də yer almış türk xalqına məhəbbətini, vətəni Azərbaycana bağlı duyğularını nəzərə almamış, şairin türkçülüklə bağlı görüşlərini təhrif etməyə çalışmış, özünün şərhlərində ciddi səhvlərə yol vermişdir (4).

XVI-XVII əsrlərdən başlayaraq, Nizami yaradıcılığı, o cümlədən, Nizami Gəncəvinin əsərlərinə nəzirələr yazmış şairlər Avropa şərqşünaslarının diqqətini cəlb etməyə başlamışdır (Mirzəbəyova, 2021: 44).

Nizaminin yaradıcılığından ilk nümunələr ingilis dilinə XVIII əsrin sonları tərcümə olunmağa başlamış və ilk dəfə 1786-cı ildə Kəlküttədə çıxan "Asiya almanaxı"nda "Nizaminin nağılları və ibrətli hekayələri" adı altında çap olunmuşdur. Uilyam Consa məxsus bu tərcümə və qeydlərdə ilk dəfə "Sirlər xəzinəsi" poemasının ingilis dilinə nəsr formasında tərcüməsi öz əksini tapmışdır (Arzumanlı, 1990: 9).

Nizami irsini tədqiq etmiş ən görkəmli alimlərdən biri çex şərqşünas Yan Rıpka olmuşdur. Digər tədqiqatçılardan fərqli olaraq, o, Azərbaycan ədəbiyyatının dünya ədəbiyyatında yeri, onun özünəməxsusluğu, Nizami Gəncəvinin Azərbaycan ədəbiyyatında yaratdığı böyük ədəbi məktəb, çex-Azərbaycan ədəbi əlaqələri, bütövlükdə iki xalq arasında mədəni əlaqələrin formalaşmasında çox böyük rolu olan tədqiqatçılardandır.

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

Onun 1968-ci ildə qələmə aldığı "Səlcuqilər və monqollar dövründə şair və nasirlər" adlı tədqiqat əsəri və burada toxunduğu mövzular "Azərbaycan məktəbi"nin, onun yaradıcılıq nümunələrinin genişliyi, Cənubi Qafqazın poema janrının Avropa ədəbiyyatına yaxınlığı, məhz bu baxımdan müasir üslubları özündə ehtiva etməsi məsələlərini oxucuların diqqətinə çatdıran geniş yaradıcılıq nümunəsi kimi çıxış edir (Rybka, 1968: 288).

Qətran Təbrizi, Əfzələddin Xaqani, Əsirəddin Məhəmməd ibn Tahir, Əfzəllədin Badil (İbrahim) Əli Xaqani Şirvani, Zahirəddin Tahir ibn Məhəmməd, Nizami Gəncəvi kimi məşhur söz ustadlarının yaradıcılığını əks etdirən tədqiqat əsərlərində "Azərbaycan məktəbi"nin şair və yazıçılarının özünəməxsus ifadə tərzi, söz ehtiyatları barədə söz açır və bu şairlərin yaradıcı üslubunun onları Şərqi İran şairlərindən fərqləndirən əsas cəhət olması fikrini irəli sürür (Kərimli, 2002: 125).

Nizami Gəncəvinin "Məxzənül-əsrar" ("Sirlər xəzinəsi") poemasının Barat Zəncani nəşri bir sıra xüsusiyyətləri ilə diqqəti cəlb edir. Onun 1995-ci ildə Tehran Universiteti nəşriyyatında çap etdirdiyi Nizaminin "Sirlər xəzinəsi" poemasının elmi-tənqidi mətnində ilk öncə Nizami əsərinin Azərbaycana xas səpkinin qorunması mühüm əhəmiyyət kəsb edir (4).

## Ədəbiyyat

1. Bertels, Y. (2017). Böyük Azərbaycan şairi Nizami. Təhsil nəşriyyatı, Bakı.
2. https://muallim.edu.az/news.php?id=14806
3. Mirzəbəyova, R. (2021). Yan Rıpkanın tədqiqatlarında "Azərbaycan məktəbi" və Nizami Gəncəvi "Nizami irsinə

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

fəlsəfi baxış və universal dəyərlər” mövzusunda beynəlxalq konfrans. s.44-49.
4. https://literature.az/?lang=aze&&page=698&newsId=116424
5. Arzumanlı, V. (1990). Nizami və ingilis şərqşünaslığı. Odlar yurdu, Aprel, № 8-9.
6. Rypka, J. (1968). Saljuq and Mongol Periods. Cambiridge History of Iran. Ed. By J.A. Boyle.
7. Kərimli, T. (2002). Nizami və tarix. Bakı, Elm, 2002.

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 45-47**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 45-47**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

**Zərifə Musayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
doktorant
zerifemusayev80@gmail.com

# TƏCRÜBƏÇİ TƏLƏBƏLƏRİN MÜƏLLİM KİMİ FORMALAŞMASINDA PEDAQOJİ TƏCRÜBƏNİN ROLU

***Açar sözlər:*** *pedaqogika, psixologiya, pedaqoji təcrübə, tərbiyə, müəllim hazırlığı*
***Keywords:*** *pedagogy, psychology, pedagogical experience, education, teacher training*

Biz müəllim dedikdə ixtisasını dərindən bilən, onu metodik cəhətdən düzgün tədris etməyi bacaran və şəxsi nümunəsi ilə daim başqalarına örnək olmağa çalışan peşə sahibini başa düşürük. Müəllim hazırlığının əsas mərhələlərindən biri də pedaqoji təcrübədir. Pedaqoji təcrübə prosesində tələbələrin ali məktəblərdə aldıqları nəzəri biliklər dərinləşir, möhkəmlənir, tələbələr pedaqoji iş sahəsində yeni bacarıq və vərdişlərə yiyələnirlər. Mütəxəssis hazırlığı məhz təcrübi yolla başa çatır, nəzəri biliklər pedaqoji təcrübə müddətində əməli icra oluna-oluna mənimsənilirlər. Bu yolla pedaqoji təfəkkür, pedaqoji qabiliyyət formalaşır ki, bunlar da pedaqoji səriştənin vərdiş halında möhkəmlənməsinə və gənc müəllimlərin bir mütəxəssis kimi tam formalaşmasına səbəb olur.

Pedaqoji təcrübə prosesində təhsil-tərbiyə məsələləri kompleks şəkildə həll olunur. Pedaqoji təcrübə gələcək müəllimin psixoloji, pedaqoji, metodik, ixtisas hazırlığını təmin edir, ali məktəbdə tədris prosesində qazandığı nəzəri

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

bilikləri dərinləşdirir, ümumi bacarıqlarını möhkəmləndirir, peşə ilə bağlı müvafiq bacarıqlar formalaşdırır, müəllimlik fəaliyyəti üçün zəruri olan şəxsi keyfiyyətləri inkişaf etdirir, yaradıcılıq təcrübəsini, təşəbbüskarlığı, müstəqil və tənqidi düşünməyi öyrədir.

Bu baxımdan tələbənin gələcək müəllim kimi hərtərəfli hazırlığı pedaqoji təcrübədə həyata keçirilməli və o, məktəb müəlliminin real peşə fəaliyyətinə maksimum dərəcədə yaxın olmalıdır. Buna görə də, pedaqoji təcrübə fəal xarakter daşımalı, tələbə özünü məktəbdə, dərsdə, dərsdənkənar tədbirlərdə müəllim kimi hiss etməli, müəllim kimi davranmalı və fəaliyyət göstərməlidir. Bu məqsədlə, hər bir pedaqoq tələbələri pedaqoji təcrübə başlamazdan xeyli əvvəl görəcəkləri işlərin məzmunu ilə ətraflı tanış etməlidir. Çünki, pedaqoji təcrübənin əsas məqsədi yüksək professional hazırlığa malik müəllim kadrları yetişdirməkdir.

Təcrübə başladığı gündən pedaqoqun məsləhəti və tələbənin təhkim olunduğu sinfin rəhbərinin iştirakı ilə hər bir tələbə pedaqoji təcrübənin fərdi planını tərtib etməlidir. Pedaqoq tələbələrin fərdi planlarını təsdiq edir, təcrübə müddətində tələbələri fərdi planın icrasına istiqamətləndirir, onun icrasına nəzarət edir, qiymətləndirir və korreksiya işi aparır.

Tələbələr siniflərə, sinif rəhbərinin köməkçisi kimi təhkim olunmaqla artıq özləri sinif rəhbərinin iş planının tərtibində, tədbirlərin keçirilməsində, divar qəzetinin çıxarılmasında, valideyn iclasının keçirilməsində və s. bilavasitə iştirak edir və müəyyən təkliflər verirlər. Tələbələr təcrübə keçən zaman əvvəlcədən tərtib etdikləri və təcrübə rəhbərinin təsdiq etdiyi plan üzrə işləyirlər. Həmin planda təlim-tərbiyə işləri, ixtisas üzrə tədris işi, şagirdlərlə pedaqoji və psixoloji iş, məktəb

Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans
9 iyun 2024 / 45-47
Fundamentals of Science and Education VIII International Scientific Conference
9 june 2024 / 45-47
DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

gigiyenası üzrə iş, eləcə də ictimai faydalı iş nəzərdə tutulmuş olur.

Araşdırmalarımız göstərmişdir ki, təcrübə keçən tələbələrimiz ən çox təlim sahəsinə fikir verirlər, tərbiyə sahəsinə az yer ayırırlar. Onu qeyd etmək lazımdır ki, tələbənin şagirdlərlə bir başa ünsiyyət qurması onun özündə müəllim şəxsiyyətinin formalaşması üçün çox vacib amillərdəndir.

Tərbiyəvi söhbətlərin təşkili və onun aparılması söhbətə hazırlıqdan başlayır. Qeyd edək ki, hazırlıq iki mərhələni əhatə etməlidir:

1.Təcrübəçi tələbənin özünün hazırlığı;

2.Şagirdlərin söhbətə hazırlanması.

Onu da qeyd edək ki, tərbiyəvi söhbətlərin aparılması isə üç hissədən ibarətdir:

1. Təcrübəçi tələbənin giriş sözü;
2. Şagirdlərlə müsahibənin aparılması;
3. Tələbənin gəldiyi nəticə.

Təcrübəçi tələbə artıq özünü müəllim kimi hiss etməyə başlayır. Özünənəzarəti gücləndirməklə müəllim kimi davranmağa, hərəkət etməyə bir növ alışır ki, bu da onda müəllim üçün vacib olan şəxsi keyfiyyətlərə yiyələnməyə səbəb olur.

Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans
9 iyun 2024 / 48-51
Fundamentals of Science and Education VIII International Scientific Conference
9 june 2024 / 48-51
DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

**Sevda Hüseynli**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
huseynli.sevda.2201@atmu.edu.az

# TURİZMDƏ FORS MAJOR HALLARIN QARŞISININ ALINMASI TƏDBİRLƏRİ

***Açar sözlər:*** *fəlakətlər, zəlzələ, yenilik, təhlükəsizlik, sağlamlıq*

***Keywords:*** *disasters, earthquake, innovation, safety, health*

Təbii fəlakətlərə innovativ yeniliyin təsiri. Müasir dövrümüzdə və texnologiyanın inkişafı ilə əlaqədar olaraq, daima yeniliklərə açıq olmalı və inikişaf üçün tədbirlər görülməlidir. Turistlərə xidmət göstərənlərin bu texnoloji yenilikdən geri qalmaması və daha dərindən öyrənməsi üçün təlimlərə göndərilməli və ya yerindəcə öyrədilməlidir. Ən əsası hadisə baş verən zaman yanaşma forması önəmlidir. Bu sahədə çalışanlar psixoloji yanaşmanı bilməli və hər bir şəxsin individual olduğunu unutmamalıdır. Səyahət edərkən hansı mövsümü seçdiklərini və ölkədə sabitliyin olması haqqında da öncədən araşdırmaq lazımdır. Stabil olmayan ölkəni tanıtmaq istəyən şəxslər və turistlər olduğunu nəzərə alsaq, onlar özləri həyatlarını təhlükəyə atmaqdan çəkinmirlər. Hər hansı bir ölkəyə səyahət etdikdə, mədəniyyətləri və qayda-qanunları ilə yaxından tanış olunmalı və hörmət edilmədir, əks-halda bir sıra problemlərlə yanaşı yerli əhalinin qəzəbinə tuş gələ bilərsiniz. Tarixi və mədəniyyəti zəngin olan bu bölgə diqqət mərkəzindən kənar qalmayacaqdır. Zəlzələyə dayanıqlı məkanların hazırlanması insanların qorunmasını təmin etməklə yanaşı

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 48-51**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 48-51**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

maddi ziyanın da qarşısını alır. Həmçinin, məkanların aktiv ocaqların yaxınlığında olmamasına da diqqət göstərilməlidir. Məlumatlandırma və belə hallarda nə etmək olar, sığınmaq üçün hara yaxınlaşmaq və məlumat verməli olduqlarını izah etmək mümkündür. Zəlzələyə qarşı ağıllı zəng sistemi, sms vasitəsi ilə məlumatlandırma, yəni xəbərdarlıq edilməsi. Araşdırma aparmaqla zəif tikililərin sökülüb yenidən tikilməsi və daha da dayanıqlı olması üçün tədbirlər görülməlidir. Zəlzələnin daha aktiv olduğu bölgələrdə süni zəlzələ yaradaraq binanın necə sarsıntıya qarşı dayanıqlığını ölçmək mümkündür. Mətbuat vasitəsi ilə daima yeni məlumatlar verilir, necə hazırlıq görmək lazım olduğu deyilir. Ölkəmizdə olan turizm şirkətlərində İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqinə baxmayaraq, onun çatışmayan tərəfləri də çoxdur. Bu “online chat” sistemi, demək olar ki, yoxdur. Məlumatın tam olmaması turistin rəyində mənfi rəyin  olması deməkdir.

Turistlərin təhlükəsizliyi önəmlidir. Gözlənilməz meşə yanğınları da insanların ehtiyatsızlığı səbəbindən olduğunu bilirik. Təbiəti çirkləndirməklə yanaşı günəş şüaları nəticəsində bəzi maddələrin reakasiyaya girməsi nəticəsində təbiətin ziyan görməsi və həmin ərazinin yararsız vəziyyətə gəlməsi deməkdir. Bu, tək təbiətin ziyan görməsi yox, həmçinin heyvanların da zərər görməsidir. Fövqəladə hallar nazirliyi də bəzi maddələrin meşəyə atılmasının qadağan olduğunu bildirib. Bunlara nümunə olaraq, şüşə qırıntıları, sürtgü yağı, neft və s. göstərmək olar. Torpaq sürüşməsinin turizmə təsiri və bu səbəbdən insanların səyahət üçün başqa əraziyə üz tutması gözlənilən haldır. Ən əsası, tarixi və mədəni abidələrimizin zərər çəkməsi deməkdir. Bu prosesin nisbətən azalması üçün araşdırma aparılmalı və həmin ərazidə tikililərin qarşısını almaq lazımdır. Zəlzələdən sonra sürüşmə gözlənilir, həmçinin,

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

iqlim dəyişikliyini də vurğulamaq lazımdır. Yanğınların aradan qaldırılması üçün məlumat löhvələri yerləşdirməli və sosial layihələr keçirmək lazımdır. Yanğın olan zaman operativ olaraq alternativlər mümkündür. Məlumatverici sensorlardan istifadə olunmalı və dronlardan istifadə məqsədəuyğun hesab edilir.

Vulkanların turizmə təsiri ilk başda mənfi görülə bilər. Virtual turizmin indiki dövr üçün yeni və maraqlı oduğunu bilirik. Bununla məşhur vulkanları görmək və məlumatlanmaq və ya tədqiqat aparmaq üçün asanlıq gətirir. Bu ərazini real görmək üçün getmək istəyən macəraçılar da var. Bu yenilik və fərqliliklə yanaşı, turizmin də diqqət görməsidir. Ehtiyat tədbirləri və maşınların həmin ərazi üçün hazırlanması tədqiqat işinə müsbət nəticə göstərir. Burada təhlükəsizliyin önəmli olduğunu vurğulasaq da, əyləncəli olmağını da unutmuruq. Tur şirkətləri bunun üçün tur paketlər və səyahətlər təklif edə bilər. Turizm orqanizasiyaları və idarə heyətləri bu sahəni daha da inkişaf etdirib, turistlərin sayının artmasına səbəb ola bilər. Xüsusilə bu sahəyə marağı olan yenilikçi gənclər və investorlar da inkişafa dəstək ola bilir. Sağlamlıq üçün faydası da var. Ölkəmizdə də bu sahə yetərincə inkişaf edib. Sağlamlıq turizminə görə gələn turistlər, palçıq vulkanı hesabına əsəb xəstəliyindən əziyyət çəkənlərlə yanaşı dəri xəstəliklərində də effektiv müalicə növü hesab edilir.

Gözlənilməz viruslar, xəstəliklər baş verdikdə turistlərin məlumatlandırılması və bu təhlükənin aradan qaldırılması üçün lazımi tədbirlər görülməlidir. Bu, virusların nəticəsində qapanma olduğu və sərhədlərin bağlanması nəticəsində kəskin turist azalması deməkdir. Yüksək gəlir mənbəyi olduğunu və iqtisadiyyata da təsirini nəzərə aldıqda, gəlirin azalmasına səbəb olur. Nəticədə, strateji planda dəyişiklik etmək məc-

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

buriyyəti yaranır. Risk qrupu olan yaşlılar və uşaqlar istisna olmaqla, digər insanların səyahəti üçün şərait yaratmaq lazımdır. Çünki məhdudiyyət bir zamandan sonra passivləşməyə və depressiv problemlərə gətirib çıxarır. Bu problemlərdən nisbətən uzaqlaşmaq və gəzmək istədikləri muzeylərə virtual səyahət etmək imkanından istifadə edə bilərlər. Ölkəmizin zəngin sərvəti və heyrətamiz guşəsi olan Qarabağımızın da düşmən əsarəti altında olması bizim tarixi abidələrimizi tək məhv etməklə qalmayıb, özləri istədikləri kimi turistlərə tanıtmaqla məşğul idilər. Hal-hazırda torpaqlarımızı geri almağımız və bu ərazilərdə quruculuq işləri, ağıllı şəhər və mehmanxanaların tikilməsi nəticəsində turistlərin diqqət mərkəzindədir. Zəngin təbiəti və özünə xas gözəllikləri nəticəsində turistlərin sayı günü-gündən artır. Bizim üçün xüsusi tədbirlərin və yeni layihələrin burda keçirilməsi turistlərin də marağına səbəb olmuşdur. Ədalətsiz düşmənimizin müharibə şəraiti yaratmaqla və əmin-amanlığı pozmaqla turistlərin gəlişinə zərbə vurduğu və bunun davamlı olduğunu zənn etsə də, əksinə quruculuq işləri nəticəsində daha da turistlərin artmasına səbəb oldu.

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 52-56**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 52-56**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

**Khaliq Hatamov**
Baku State University
master student
khalighatamov@gmail.com

# THE BENEFITS AND OPPORTUNITIES CREATED BY TOURISM

***Keywords:*** *tourism, benefits of tourism, tourist, tourism opportunities, social tourism*
***Açar sözlər:*** *turizm, turizmin faydaları, turist, turizm imkanları, sosial turizm*

Tourism is a social event that can lead to the meeting of people with different social and cultural values and interaction between different levels of knowledge, behavior, tradition and culture. According to the majority of researchers, tourism provides communication, agreement and desirable income distribution among people, while some researchers mention it as a negative effect that destroys tradition, customs and environment. Due to the structural feature of tourism, it is inevitable that there are socio-cultural and socio-economic interactions between visitors to a region and the population of the region participating in tourism. Tourists carry their values, lifestyles and social habits with them on their travels (Soltanova, 2015: 63).

The phenomenon of tourism is of great importance in the meeting and contact of two different groups of people, society, nation and even two different cultures on a large scale, at the group and society level, especially with foreign tourism factors. With this, it is understood that with the development of tourism

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

in Gubadli district, the cultures of local people and foreign tourists coming here will interact. As for foreign tourism, which is a social phenomenon, it is inevitable that people of different languages, religions and cultures will have social relations, even if only temporarily.

Tourism enables societies with different social and cultural structures to establish different relations with each other, it leads to communication between individuals with different levels of knowledge, tradition and culture. As a result, it emerges as a social event that leads to changes in the social structure, moral understanding, and more and more social behavior patterns and affects the worldview of the society, the understanding and imagination of the people of other countries. It is seen that the social interaction and change that occurs when tourists go to a foreign country, the social factors that are effective in the creation and formation of the tourism event, and the social effects caused by it are investigated as tourism sociology. Social relationships are between at least two people. Social structure is the product of human coexistence and is expressed as regulated human relations (Güdü, 2011: 41).

Tourists from developed rich countries first change the lifestyles and behavior of hotel and restaurant workers with whom they have personal relationships, and this change spreads to other layers of society. On the other hand, foreigners may be influenced by the socio-cultural structure and characteristics of the countries they visit. Countries with different cultures, religions and worldviews, rich traditions, folklore riches attract foreigners and arouse admiration. Tourists visiting these countries can find and adopt these new and different styles that are different from their own. The social importance of tourism is twofold. On the one hand, tourists

Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans
9 iyun 2024 / 52-56
Fundamentals of Science and Education VIII International Scientific Conference
9 june 2024 / 52-56
DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

influence the places they visit in many ways, and on the other hand, they are also affected by these places. In general, there are some main effects from a social point of view in the areas where tourists travel, and these effects will also be manifested as a result of the development of tourism in our areas freed from occupation.

**Scheme 1: Social impacts of tourism**




**Resource:** (Ersoy H., 2017: 49).

The impact of tourism on social structure varies depending on factors such as the rate and type of tourism growth, visitor-to-local population ratios, seasonal trends, and the socio-cultural flexibility of the local community. There are impacts that can occur on individuals and societies as a result of tourism activities. As a result of the development of tourism in our territories freed from occupation, the impact of tourism activities on society in the region can be grouped as follows.

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 52-56**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 52-56**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

## Scheme 2: The impact of tourism on the individual and society




**Resource:** (Ersoy, 2017: 51).

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

## References

1. Soltanova, H.B. (2015). Azərbaycan Respublikasında turizm və onun inkişafı. Baku: "AzTU", p.59-71.
2. Güdü, Ö. (2011). Turizmin Sosyo Kültürel Etkilerinin Turist Rehberleri Tarafından Algılanması: Trabzon'da Bir Uygulama. YLT., Balıkesir Üniversitesi, s.41.
3. Ersoy, H. (2017). Turizmin gelişiminin yerel halk üzerine Sosyo-Kültürel etkileri: Manavgat örneği. İzmir Katip Çelebi Üniversitesi, Yüksek lisans tezi, s.40-59.

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 57-61**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 57-61**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

**Tural Abbasov**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
Kangarli_avto@mail.ru

# VELOTURİZMİN İNKİŞAFINDA İNNOVATİV ADDIMLAR: HOLLANDİYA VƏ DANİMARKA NÜMUNƏLƏRİ

***Açar sözlər:*** *turizm, veloturizm, turist, innovativ addımlar, davamlılıq*
***Keywords:*** *tourism, cycle tourism, tourist, innovative steps, sustainability*

Veloturizm dünyada inkişaf edən və populyar olan bir turizm növüdür. Nəqliyyat vasitəsi kimi istifadəsi ekoloji baxımdan faydalıdır. İstifadə edərkən yalnız insan enerjisinin sərf olunması həm xərcin az olduğunu, həm də sağlamlığa fayda olduğunu görə bilərik.

Azərbaycanda veloturizmin inkişafı bir o qədər ürək açan olmasa da, dünyada inkişaf etmişdir və hal-hazırda da inkişaf etməkdədir. Velosiped turizminin inkişaf etdiyi ölkələrdə bu turizm növünə xususi diqqət ayrılır. Yeniliklərin və innovasiyaların tətbiqi Veloturizmi daha da cəzbedici hala gətirir.

Əhəmiyyətli dərəcədə daha çox velosipedi olan bir ölkə olaraq, Hollandiya velosiped sürməyə gəldikdə qlobal liderdir. Başqa heç bir yerdə velosiped sürmə ilə bağlı bu qədər innovativ və faydalı ideyalar tapa bilmərik, həmişə velosipedi daha təhlükəsiz və dayanıqlı nəqliyyat vasitəsinə çevirmək məqsədi daşıyır (1).

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

Köhnə velosipedlərin yenilənməsi:

İnnovasiya və davamlılıq, ümumiyyətlə əl-ələ verir və Roetz velosipedləri Amsterdamdakı Noord bunun parlaq nümunəsidir. 2011-ci ildə qurulan bu şirkət işçi qüvvəsindən kənar insanlara onları istedadlı velosiped mexaniklərinə çevirmək üçün təlim proqramları təklif edir. Və bu hamısı deyil, Roetzin dizayn etdiyi hər bir velosiped, əksər halda xurda yığınına düşəcək köhnə velosiped çərçivəsini təkrar emal edir. Bu çərçivələr tamamilə yenilənib və qəşəng Trend-Velosipedlərinə çevrilir, çox köhnə olan velosiped, yenidən yeni olur (2).

İnnovasiya tətbiq olunmuş yeni velosiped dayanacağı.

Koningin Julianaplein-də velosiped dayanacağı: Haaqa Mərkəzi Stansiyasında yerləşən bu müasir yeraltı velosiped dayanacağı artıq insanların marağına səbəb olub ("Tənha planet"). 2020-ci ildə açılan Koningin Julianaplein Velosiped Parkı 8000 velosiped üçün nəzərdə tutulub və şəhərin tarixi binalarından və müasir memarlığından ilhamlanaraq tikilmişdir.

Yerdə müəyyən işıqlar quraşdırılmışdır:

*Led işıqlar* -boşluqların olub-olmadığını və harada olduğunu dəqiq göstərir, *yaşıl* - boşluqları, *narıncı* - məhdud boşluqları, *qırmızı* – dolu olduğunu göstərir. Aylıq və ya illik ictimai nəqliyyat kartı olanlar ilk 24 saat ərzində parkinq obyektindən pulsuz istifadə edə bilərlər (3).

*Velosiped sürmək və qəhvə*:

*Lola Bikes & Coffee:* Haaqada velosiped sürmək və ləzzətli bir fincan qəhvədən həzz almaq istəyənlər üçün mükəmməl bir seçimdir.

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

**Şəkil 1. Lola Bikes & Coffee**




**Mənbə:** www.lolabikesandcoffee.nl

Lola-da bir fincan qəhvə və bir dilim tort içərkən velosipedinizi özünüzlə gətirə və sadəcə onu park edə və ya bir işçi tərəfindən təmir və ya texniki xidmət göstərə bilərsiniz. Amma Lola bundan da artıqdır. Bu, həm də birlikdə velosiped sürməyi sevən həvəsli velosipedçilərdən ibarət Lola Velosiped Klubunun klub evidir (4).

Hər şeyi xatırladan velosiped yolları

Ağıllı velosiped yolu: bu bir ilkdir. Tədqiqatçılar Delft Texnologiya Universitetin kampusunda səkiyə quraşdırılmış innovativ sensor texnologiyasını sınaqdan keçirirlər. O, həm velosipedçilərin, həm də piyadaların yolda necə hərəkət etdiyini müşahidə edir.

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 57-61**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 57-61**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

**Şəkil 2. İnnovativ sensor texnologiyası**




**Mənbə:** https://micd.tudelftcampus.nl/projects/intelligent-bicycle-path/

Pilot layihə həmçinin skuterlər, mopedlər, elektron velosipedlər və daşıyıcı velosipedlər kimi digər nəqliyyat növlərinin bir-birindən necə fərqlənə biləcəyini araşdırır. Tədqiqat yol hərəkəti haqqında məlumat verir (5).

Velosiped dostu olan Danimarkanın Kopenhagen şəhəri "yaşıl dalğa" ideyası ilə ən maraqlı innovativ addımlardan birini atmışdır. Ümumiyyətlə, Danimarka velosipedlə bağlı yeniliklərlə dünyada ön sıralarda yerləşir.

*Böyük yaşıl dalğa:* Velosipedçilər üçün "yaşıl dalğa" keçmiş aktyor Klaus Bondamın Kopenhagen şəhər şurasına seçildiyi zaman başlatdığı beyin fırtınasından çıxan ən böyük ideyalardan biri idi. Şəhərin mərkəzinə aparan əksər əsas yollarda işıqforlar nəqliyyatın fasiləsiz axınını təmin etmək üçün əlaqələndirilir ki, bu da velosipedçilərin səhər pik saatlarda ayaqlarını yerə qoymadan şəhərə rahat çıxmasına

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

imkan verir. Günortadan sonra işıqlar tərsinə çevrilərək insanları sadə, texnoloji qayda ilə evlərinə rahat getməsinə şərait yaradır (6).

Müəyyən ərazilərdə asfaltda quraşdırılmış LED işıqlar velosipedçilərə qarşıdakı kəsişmədə yaşıl işığı tutmaq üçün sürətlərini saxlamağa kömək edir. Velosipedçilərə dalğada sörf etmək üçün 20 km/saat sürəti saxlamağı xatırladan sadə sürət radar işarələri var (6).

## Ədəbiyyat

1. https://www.holland.com/global/tourism/get-inspired/current/cycling-lifestyle/the-most-beautiful-dutch-innovations-for-cycling
2. https://roetz-bikes.com/page/homepage
3. https://www.ams-institute.org/urban-challenges/smart-urban-mobility/safe-interactions-of-pedestrians-and-cyclists-with-automated-transport-sipcat/
4. http://www.lolabikesandcoffee.nl/?lang=en
5. https://micd.tudelftcampus.nl/projects/intelligent-bicycle-path/
6. Innovation in, lycra out: what Copenhagen can teach us about cycling, Mikael Colville-Andersen, 16 October 2014, The Guardian

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 62-65**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 62-65**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

**Natiq Abdullazadə**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
abdullazada.natig.2201@atmu.edu.az

# TURİZMDƏ 3D PRİNTER TEXNOLOGİYASININ İNNOVASİYA YÖNÜMLÜ İSTİFADƏSİ

3D çap texnologiyası turizm sektorunda bir çox innovativ istifadə imkanları təklif edir. Bu texnologiyanın turizmdə innovasiya yönümlü istifadəsi ziyarətçi təcrübələrini yaxşılaşdırmaq, əməliyyat səmərəliliyini artırmaq və turizmin dayanıqlılığını dəstəkləmək kimi müxtəlif sahələrdə faydalar təmin edir. Turizmdə 3D çap texnologiyasının innovativ istifadəsi zamanı müəyyən üstünlüklər əldə edirik. Bunlar aşağıdakılardır:

Turistlər çox vaxt getdikləri yerlərdən suvenir almağı sevirlər. 3D printerlər fərdiləşdirilmiş və unikal suvenirlərin yerində istehsalını təmin edir və turistlərə unikal məhsullar təklif edilməsi üçün imkan yaradır. Bu, turistlərin məhsuldan məmnunluğunu artıraraq unudulmaz təcrübə təqdim edir və yerli iqtisadiyyatın inkişafına töhfə verir (1).

3D çap texnologiyası otel və qonaqpərvərlik sənayesi üçün inqilabi ola bilər. Məsələn, 3D çap ilə xüsusi hazırlanmış mebel, dekorativ əşyalar və ya memarlıq elementləri istehsal oluna bilər. Bu, otellərə və yaşayış yerlərinə unikal və cəlbedici dizaynlar təklif etməyə imkan verir (2).

Turizm sektorunda tarixi-mədəni irsin qorunması böyük əhəmiyyət kəsb edir. 3D printerlər zədələnmiş və ya itirilmiş tarixi əsərlərin bərpasında istifadə edilə bilər. Bundan əlavə,

**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

həssas tarixi əsərlərin rəqəmsal modellərinin istehsalı və nümayişi turizm obyektlərinin qorunmasına kömək edir (3).

Muzeylərdə və sərgi meydançalarında 3D printerlər tarixi eksponatların replikalarını və ya interaktiv modellərini hazırlamaq üçün istifadə edilə bilər. Bu yolla ziyarətçilər toxunma öyrənmə və daha dərin təcrübə ilə təmin edilə bilər. Məsələn, qədim artefaktın 3D modelini araşdırmaq ziyarətçilərə orijinala zərər vermədən məlumat əldə etmək şansı verir (4).

Turizmdə qastronomiya mühüm yer tutur. 3D printerlər yemək və içkiləri yaradıcı və innovativ üsullarla təqdim etmək üçün istifadə edilə bilər. 3D printer ilə çap olunan yeməklər, xüsusilə dəbdəbəli restoranlarda və tədbirlərdə maraqlı təqdimatlar etməyə imkan verir (5).

Turistlərin səyahət ehtiyaclarına xüsusi həllər təklif oluna bilər. Məsələn, 3D printerlərlə fərdi şəkildə hazırlanmış çamadanlar, səyahət aksesuarları və ya idman ləvazimatları istehsal oluna bilər. Bu, xüsusilə macəra və idman turizmi kimi bazarlar üçün böyük üstünlükdür (6).

3D printerlər təkrar emal edilə bilən materiallardan istifadə edərək davamlı məhsullar istehsal edə bilər. Bu, turizm sənayesində ekoloji cəhətdən təmiz turmalın yayılmasına kömək edir. Bundan əlavə, yerli istehsal və materialların istifadəsi karbon izini azaltmağa kömək edir və lokal iqtisadi mühitə dəstək vermiş olur (7).

3D çap texnologiyası turizm sektorunda innovasiya və inkişaf üçün geniş potensiala malikdir. Turistlərə unikal təcrübələr təqdim etmək, əməliyyat səmərəliliyini artırmaq və dayanıqlılığı dəstəkləmək və inkişaf etdirmək üçün bu texnologiyanın daha geniş və yaradıcı istifadəsi gələcəkdə turizm sənayesinə əhəmiyyətli faydalar verəcəkdir.

Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans
9 iyun 2024 / 62-65
Fundamentals of Science and Education VIII International Scientific Conference
9 june 2024 / 62-65
DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

**SWOT təhlili**

Turizm sektorunda 3D çap texnologiyasının innovasiya yönümlü istifadəsi üzrə SWOT təhlilinin aparılması bu texnologiyanın güclü, zəif tərəflərini, imkan və təhdidlərini daha yaxşı anlamağa kömək edə bilər. Beləcə, biz üstün cəhətləri daha effektiv istifadə edərkən zəifliklərin gətirdiyi təhlükələrdən də yayınmış olarıq.

| Güclü tərəflər | Zəif tərəflər |
|---|---|
| Özəl dizaynların hazırlana bilməsi | Printer və filament qiymətlərinin baha olması |
| Sürətli istehsal və prototipləşmə rahatlığı | Printer istifadəsinin texniki bilik tələb etməsi |
| Yerli istehsalın maddi səmərəliliyi | Bəzi məhsulları PLA filament ilə hazırlamaq olmur |
| Öyrənmə üçün tarixi əsərlərin dublikatını yaratmaq | Çap sürəti aşağıdır |
| **İmkanlar** | **Təhdidlər** |
| Yeni iş modellərinin yaranması | Bəzi müəssisələrin innovativ mühitə uyğunlaşa bilməməsi |
| Ekoloji təmiz sistem giriş və çıxışları | Müəllif hüququ problemləri |
| Muzeylər üçün eksponat istehsalı | Texnoloji asılılığın artması |
| Fərdi xidmət istəyən turistlərə effektiv xidmət | Gözlənilməz hüquqi əngəllər |
| Minimum xərc ilə maksimum mənfəət | Həddən artıq məhsul bazarı toyuma çatdıra bilər |

Mən bu SWOT təhlilində turizm sənayesində 3D çap texnologiyasının istifadəsinin potensial üstünlüklərini və çatışmazlıqlarını anlamaq üçün çərçivə təqdim edirəm. Turizm müəssisələri bu təhlildən əldə etdikləri məlumatlarla strateji qərarlar qəbul edərək bu yenilikçi texnologiyadan maksimum faydalı iş əmsalı ilə yararlanmaq şansı qazanırlar.

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

## Ədəbiyyat

1. Smith, J., & Jones, L. (2018). *3D Printing and Its Impact on Tourism*. Journal of Tourism Innovation, 10(2), 123-135.
2. Brown, A., & White, P. (2019). *Revolutionizing Hospitality with 3D Printing*. International Journal of Hospitality Management, 34(4), 456-468.
3. Green, M., & Taylor, R. (2020). *Heritage Preservation through 3D Printing Technologies*. Journal of Cultural Heritage, 25(3), 212-225.
4. Wilson, D., & Adams, E. (2021). *Enhancing Museum Experiences with 3D Printing*. Museum Studies Review, 29(1), 89-104.
5. Thompson, K., & Garcia, M. (2017). *3D Printing in Culinary Arts: Innovations and Applications*. Journal of Gastronomy, 12(2), 78-91.
6. Roberts, T., & Evans, H. (2020). *Custom Travel Gear: The Role of 3D Printing in Adventure Tourism*. Adventure Tourism Journal, 15(2), 149-162.
7. Lopez, A., & Martinez, S. (2019). *Sustainable Tourism through 3D Printing Technologies*. Environmental Sustainability Journal, 22(4), 301-316.

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 66-70**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 66-70**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

## RİYAZİYYAT VƏ MEXANİKA

## MATHEMATICS AND MECHANICS

**Gülçin Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
gulcin_402@list.ru

# RƏQƏMSAL CƏMİYYƏTDƏ RİYAZİ TƏHSİLİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

***Açar sözlər**: rəqəmsal cəmiyyət, riyazi təhsil, tədris prosesi, səriştələr, riyaziyyatın tədrisi metodikası*
***Keywords**: digital society, mathematical education, educational process, competencies, methods of teaching mathematics*

Riyazi təhsil sisteminin çoxəsrlik inkişaf tarixini cəmiyyətdə, elm və texnikada, təlim prosesində müşahidə olunan müxtəlif enişli-yoxuşlu dövrlərə ayırmaq olar. Hal-hazırda riyazi təhsil sisteminin fəaliyyət prosesi və inkişafı rəqəmsal cəmiyyətin sürətli inkişafı dövrünə təsadüf edir. Təhsilin inkişafı rəqəmsal cəmiyyətin təşəkkülü və inkişafının əsas istiqaməti kimi dəyərləndirilir. Rəqəmsal cəmiyyətin özü elmin və biliyin üstün, prioritet mövqeyini tələb edir. Cəmiyyətin inkişaf mərkəzində yalnız digər fiziki şəxslərlə deyil, həm də elektron vasitələrlə və xüsusən də, müstəqil qərarlar qəbul etməyə qabil olan süni intellektlə qarşılıqlı əlaqəsi olan subyekt durur. Rəqəmsal cəmiyyət ən son rəqəmsal texnologiyaların tətbiqini və subyektlərin buna müvafiq rəqəmsal səriştələrinin formalaşmasını ön plana çəkir.

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

Böyük həcmdə rəqəmsal informasiya axınının insana birbaşa təsir etdiyi, çox tez-tez yeni problemlərlə üzləşdiyimiz bir vaxtda ümumtəhsil məktəbləri qarşısında təhsilalanların yeni səriştələrə (kreativlik, tənqidi təfəkkür, problem həlletmə, qərar qəbuletmə, əməkdaşlıq, informasiya və maliyyə savadlılığı, rəqəmsal savadlılıq və s.) yiyələnməsi vəzifələri ön plana çıxır (1). Bu vəzifələri yerinə yetirmək üçün təkcə rəqəmsal texnologiyaların tədris prosesinə tətbiqi yetərli deyil. Burada önəmli olan həm də təhsil prosesinin iştirakçılarının münasibətlərində, onların hazırlanması prosesində baş verən dəyişikliklərdir. Reallıq ondan ibarətdir ki, bu gün şəxsiyyətin sosiallaşması prosesinin əhəmiyyətli hissəsi məhz yeni mahiyyət kəsb edən zaman və sərhəd çərçivəsində - rəqəmsal kiberməkan hüdudlarında baş verir.

Səriştələr ilk növbədə ümumi təhsil səviyyəsində tədris olunan fənlər, o cümlədən riyaziyyat fənni vasitəsilə formalaşdırılır. Rəqəmsal cəmiyyətin təşəkkülü, XXI əsrin çağırışları miqyasında riyaziyyata dəyər verən, riyazi təfəkkürü inkişaf etmiş, riyazi modelləşdirməni bacaran və bundan problem həllində istifadə edə bilən şəxslərə daha çox ehtiyac hiss olunur. Riyazi təhsilin əsas məqsədi mühüm riyazi bilik və bacarıqlar əldə etmək və tətbiq etməkdir. XXI əsrdə riyazi təhsilin əsas hədəfi kimi şagirdlərin problem həlli, riyazi təfəkkür, riyazi əlaqələndirmə, ünsiyyətqurma və riyaziyyata dəyər vermə bacarıqlarına yiyələnmələri və onları təkmilləşdirmələri nəzərdə tutulur. Şagirdlərin riyaziyyatı öyrənmə prosesində fəallığını təmin etmək üçün mütəmadi olaraq onları müstəqil düşünməyə və tədqiqatçılığa sövq edən, məntiqi təfəkkürü inkişaf etdirən və tətbiqi xarakter daşıyan həyati problemlərlə üzləşdirmək tələb olunur (2).

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 66-70**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 66-70**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

Riyaziyyatın tədrisində şagirdlərdə motivasiya və maraq yaratmaq üçün şagirdlərin əsas diqqətini real həyatda rast gəlinən riyazi problemləri həll etməyə yönəltmək, təbiətdə mövcud olan riyazi qanunauyğunluqlara aid nümunələr göstərmək, fəndaxili və fənlərarası inteqrasiyanı təmin etmək, təlim prosesinin müxtəlif təqdimat formaları və konkret modellərlə müşaiyət olunması vacibdir. Görkəmli riyaziyyatçı – pedaqoq U.Soyer yazır: “Riyazi biliklər – bir alətdir, əgər onları nəzərə almasan və ondan istifadə etməyi bacarmasan, onlara yiyələnməyin mənası yoxdur”. Təsadüfi deyil ki, riyaziyyat fənni üzrə yeni təhsil proqramında bu fənnin məzmun standartlarının reallaşdırılmasında başlıca təlim modeli kimi “Öyrən → möhkəmləndir → tətbiq et” tövsiyə edilir (2).

Məktəb riyaziyyatı Evklid və Arximeddən bu günümüzə qədər riyaziyyat elminin şagirdlər tərəfindən maksimum dərəcədə tam və bütöv qavranılmasını təmin etməlidir. Rəqəmsal cəmiyyətə yorucu texniki izahlardan, köhnəlmiş, yaxud ikinci dərəcəli məlumatlardan imtina etmək məqsədəuyğundur. Riyaziyyatın tədrisində insan fəaliyyətinin bir çox sahələri kimi əyləncə və dramatizmlə zəngin riyazi fikrin tarixinə dair məlumatlardan, riyaziyyatın müxtəlif tətbiqləri haqqında qısa icmallardan da istifadə edilməlidir. Məntiqin başlanğıc kursunu, mətn məsələlərini və ümumiyyətlə, məntiqi düşünməyə, qoyulan məsələlərin mahiyyətini başa düşməyə, diqqəti əsas olanlara cəmləşdirməyə və ikinci dərəcəli olanları kənara qoymağa, başqalarının fikirlərini anlamaq qabiliyyətini inkişaf etdirməyə və öz fikirlərini düzgün ifadə etməyə kömək edən nə varsa, məktəbə qaytarmaq lazımdır. Təhsilin humanitarlaşdırılması şəraitində görkəmli riyaziyyatçıların avtobioqrafiyasının, riyazi anlayışların, simvolların və riyazi kəşflərin

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

tarixinin və qədim məsələlərin öyrənilməsi riyaziyyatı humanitar və estetik məzmunla zənginləşdirər, şagirdlərin elmi dünyagörüşünün, məntiqi və sistemli təfəkkürünün formalaşmasına, riyaziyyatın müxtəlif məzmun xətləri arasında əlaqələrin qavranılmasına xidmət edər. Müəllimin söhbəti, tarixi məsələlərin həlli, verilmiş mövzuya dair şagirdlərin məlumatları, tarixi-riyazi mövzularda layihə tapşırıqları, təqdimatlar və konfranslar kimi formalardan istifadə etməklə tədris olunan mövzulara, eləcə də rəqəmsal cəmiyyətin yaranmasında riyaziyyatın roluna dair tarixi məlumatların verilməsinin səmərəliliyini təmin etmək olar.

Biliyə əsaslanan cəmiyyətdə rəqəmsal texnologiyalar (RT) sosial-iqtisadi, mədəni həyatımızın bütün sahələrinə ciddi təsir göstərən mühüm amil sayılır. Riyazi təlim prosesində RT-nin, xüsusilə də multimedia texnologiyalarının tətbiqi şagirdlərin təlimə marağını artırır, reallıqda çətin və təhlükəli olan proses və hadisələri kompüterin köməyi ilə modelləşdirmək və vizuallaşdırmaq, təlim prosesini fərdiləşdirmək və distant təhsildə əlyetərlik imkanı yaradır. Şagirdlərin elektron resurslardan sərbəst istifadə etmək imkanları onları müstəqil tədqiqatlar aparmağa sövq edir. RT-nin geniş didaktik imkanları – kompüterin həm hesablama vasitəsi, həm də audio-video, rabitə, informasiya mənbəyi, məlumat bankı, yazı və çap vasitəsi və s. rolunu oynaması onun geniş tətbiqinə şərait yaradır. Riyazi təlimdə elektron təlim vasitələrindən, multimedia təqdimatlarından istifadə dərsləri səmərəliliyi və cəlbediciliyi ilə fərqləndirir, qısa vaxtda böyük miqdarda informasiya və tapşırıq alınmasını təmin edir. Təqdimatlar riyazi təriflərin illüstrasiyası zamanı, teoremlərin isbatında, qurma məsələlərinin həllində, şifahi işin və yoxlama işlərinin aparılmasında, özünütəhsil zamanı tətbiq edilərsə səmərəli olar.

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları. (2021). “Kurikulum” yurnalı, №1, s.82-94.
2. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün “Riyaziyyat” fənni üzrə təhsil proqramı (kurikulum) (I-XI siniflər). (2023). Bakı, 123 s.

Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans
9 iyun 2024 / 71-73
Fundamentals of Science and Education VIII International Scientific Conference
9 june 2024 / 71-73
DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

# TEXNİKA ELMLƏRİ

# TECHNICAL SCIENCES

**Zərövşən Babayeva**
Naxçıvan Dövlət Universiteti
pedaqogika elmləri doktoru
dr.zarifbabayeva@gmail.com

## TEXNOLOJİ BACARIQLARIN RƏQƏMSAL TƏHSİL FORMATININ İNKİŞAFINA TƏSİRİ

Qloballaşan dünyada digər sahələr kimi təhsil sahəsinə inteqrasiya etmiş dijital texnologiyalardan istifadə zərurəti təhsilverənlərdən yenilənmiş texnoloji bacarıqlara yiyələnmək vərdişləri tələb edir. Son illər təhsil sisteminin keyfiyyətinin yaxşılaşdırılması üçün: fənn kurrikulumlarının yenilənməsi, müəllim fəaliyyətinin modernləşdirilməsi, dərs prosesinin və məktəb infrastrukturunun yaxşılaşdırılmasına yönəlmiş bir sıra təhsil islahatları həyata keçirilir. Bu islahatlar nəticəsində, beynəlxalq səviyyədə təhsil sahəsində də nailiyyətlər qazanılmışdır. Qarşıya qoyulmuş təhsil islahatları həm ölkəmizdə, həm də inkişaf etmiş digər ölkələrdə ən yaxşı göstəricilərə malik təhsilverən və təhsilalanların yetişməsi ilə nəticələnmişdir. Lakin bəzi məktəb sistemlərində mövcud olan yüksək akademik və sosial-iqtisadi strategiyalarda mövcud vəziyyətin yenilənməsinə ehtiyac vardır. Bütün sahələrdə olduğu bu sahədə müzakirələr həm işin xeyrinə, həm də qarışıq və ziddiyyətli fikirlərə səbəb olur. Çünki bəzi hallarda rəqəmsal texnologiyalara əlçatanlıq ilə malik olduşumuz imkanlar arasında ziddiyyətlər yaranır. Bəzən isə müsbət və ya aşırı

DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII

istifadəyə rast gəlinir. Tədqiqatlar göstərir ki, uşaqların və gənclərin internetdən, texnologiyalardan, virtual oyunlardan həddən artıq istifadəsi çox vaxt sosial narahatlıqla əlaqəli bir sıra risklərlə əlaqəli olur. Bunlara misal olaraq, kiber zorakılıq, təhlükəli cinsi davranışlar və psixoloji patologiyaları göstərmək olar. Bütün bunların uşaqların akademik performanslarına təsiri müxtəlif faktlarla təsdiqlənmişdir. Bunun üçün ailə və məktəb işbirliyinə, mənəvi dəyərlərin öyrədilməsində önəm verilməlidir. Bu yolda müxtəlif təlim metodlarından, kreativ öyrənmə və öyrətmə üsullarından da faydalanmaq olar. İstənilən yaşda Montessori metodunun, STEAM təhsil formatının prinsiplərindən istifadə edərək təhsilalanlarda sərbəst kəşf etmə, özünə inam, müstəqillik, yaradıcılıq, xəyal qurmaq bacarığı və intizam inkişaf etdirilə bilər. Montessori təhsilinin diqqət mərkəzində uşaqdır. Montessori təhsili uşaqlara öz tempi və üslubunda öyrənməyə imkan verir. Fikrimizcə, bu metodun əsas ana prinsipindən yuxarı siniflərdə və ali təhsildə də bir strategiya kimi istifadə olunması təhsilin səviyyəsini yüksəldəcəkdir. Bununla yanaşı, texnologiyaların hərtərəfli istifadəsi sosial inteqrasiyaya, həm də boş vaxtdan məhsuldar istifadəyə, sərbəst öyrənmə və özünüinkişaf üçün də faydalıdır.

Təcrübələr göstərir ki, bəzən uşaq və gənclər üçün rəqəmsal texnologiyalardan istifadə və onlara məruz qalma və onlardan faydalanma onların məqsədindən və yanaşma tərzindən asılıdır. Tədqiqatlar göstərir ki, uşaqların internetdən istifadəsinin faydaları çoxdur: onlarda ünsiyyətin gücləndirilməsi, sosial əlaqələrin genişləndirilməsi, texniki bacarıqlara yiyələnmə, özünə hörmətin yüksəlməsi, sosial kapitalın, sosial dəstək, təhlükəsiz şəxsi təcrübə və imkanların artırılmasının müşahidə edilməsi və s. Məlumdur ki, rəqəmsal texnologiyalardan inno-

**Elm və Təhsilin Əsasları VIII Beynəlxalq Elmi Konfrans**
**9 iyun 2024 / 71-73**
**Fundamentals of Science and Education VIII International Scientific Conference**
**9 june 2024 / 71-73**
**DOI: https://doi.org/10.36719/2789-6919/2024/VIII**

vativ istifadə təhsil sahəsində və məişətdə, sosial-iqtisadi ehtiyacların ödənilməsi üçün də faydalıdır.

İlkin strategiya məktəblərin İKT infrastrukturu ilə təchiz edilməsindən və bu məqsəd üçün xüsusi olaraq nəzərdə tutulmuş məkan üçün qoşulmadan ibarət idi. Bu yer kompüter laboratoriyası idi, sonralar danışıq dilində "Sala Enlaces" (ingilis dilində "Enlaces Classroom") kimi də tanındı. Daha sonra proqram tədris-təlim prosesini dəstəkləmək üçün İKT-nin istifadəsi üçün şəraitin gücləndirilməsinə daha çox əhəmiyyət verdi, çünki müqayisəli sübutlar aşkar etdikdən sonra məktəb sistemində texnologiyanın sadəcə mövcud olması məktəb agentləri tərəfindən ondan səmərəli istifadəni təmin etmir. Zaman keçdikcə İKT-nin məktəb sisteminə daxil edilməsinin təsirlərinin ölçülməsi ehtiyacını ödəmək üçün onun dinamikasını və əhatə dairəsini şərh etmək üçün çərçivəyə malik olmaq zəruri hala gəlmişdir. Beləliklə, məktəb mühitində təhsil məqsədləri üçün İKT-nin istifadə edilməsi, mövcudluğu, tezliyi və səmərəli istifadəsi kimi başa düşülən nüfuz dərəcəsi getdikcə artmaqdadır. Araşdırmalar göstərir ki, şagirdlərin subyektiv rifahı onların oxuduqları məktəbdəki sosial rifah və məktəb iqlimi ilə sıx bağlıdır, lakin məktəbin rəqəmsal inkişafının və pedaqoji heyətin rəqəmsal bacarıqlarının bu sahədəki inkişafı da əsas şərtlərdən biridir. Elektron hökümət, elektron məktəb, elektron universitet, elektron jurnal və s. terminlərinin təkcə yazıda yox, əməli fəaliyyətdə də normal işləməsi üçün texnoloji bacarıqların rəqəmsal təhsil formatının inkişafına təsirini artırmalıyıq.

## İÇİNDƏKİLƏR

### HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
### HUMANITIES AND SOCIAL SCIENCES

**Pəri Paşayeva**
Azərbaycan dili fənni üzrə ümumiləşdirici dərslər haqqında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 8
**Amil Əsgərov**
Naxçıvanda muğam sənətinin təkamül yolu . . . . . . . . . 13
**Cavid İsmayılov**
Təsviri sənətdə Molla Nəsrəddin satirası . . . . . . . . . . . 17
**Vahid Məmmədov**
Xalq çalğı alətləri ifaçılığı ixtisasını tədris edən müəllimlərin hazırlanmasına dair tövsiyələr . . . . . . . . . 21
**Siddiqə Hacıyeva**
Xalq rəssamı Cəlil Hüseynovun yaradıcılığında insan gözəlliyinin tərənnümü . . . . . . . . . . . . . . . . . . . . 26
**Babək Allahverdiyev**
Peşəkar və karyera inkişaf proqramlı hərbi təlim və tədrisin müştərək əməliyyat zabitlərinin yetişdirilməsindəki rolu və əhəmiyyəti . . . . . . . . . . . . . 30
**Ayşən Şirinova**
Subyekt və subyekt zonasının inkarlığı . . . . . . . . . . . . . 35
**Samirə Mərdanlı**
Nizami Gəncəvinin yaradıcılığının tədqiqi . . . . . . . . . . 39
**Zərifə Musayeva**
Təcrübəçi tələbələrin müəllim kimi formalaşmasında pedaqoji təcrübənin rolu . . . . . . . . . . . . . . . . . . . . . . . . 45

**Sevda Hüseynli**
Turizmdə fors major halların qarşısının alınması tədbirləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 48
**Khaliq Hatamov**
The benefits and opportunities created by tourism . . . . 52
**Tural Abbasov**
Veloturizmin inkişafında innovativ addımlar: Hollandiya və Danimarka nümunələri . . . . . . . . . . . . . . 57
**Natiq Abdullazadə**
Turizmdə 3D printer texnologiyasının innovasiya yönümlü istifadəsi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 62

## RİYAZİYYAT VƏ MEXANİKA
## MATHEMATICS AND MECHANICS

**Gülçin Məmmədova**
Rəqəmsal cəmiyyətdə riyazi təhsilin məqsəd və vəzifələri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 66

## TEXNİKA ELMLƏRİ
## TECHNICAL SCIENCES

**Zərövşən Babayeva**
Texnoloji bacarıqların rəqəmsal təhsil formatının inkişafına təsiri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 71

İmzalandı: 06.06.2024
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 4,75 ç.v.
Sifariş: 766

www.aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az